Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Orqanı

# QANUNÇULUQ

## HÜQUQ JURNALI




№ 09 sentyabr 2017

*Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik hüquqi cəmiyyət qurmaq yoludur!*

*Heydər ƏLİYEV,*
*Azərbaycan xalqının ümummilli lideri*



***Ölkəmizin hərtərəfli inkişafı üçün, demokratik, hüquqi dövlətin əsaslarının möhkəmlənməsi üçün məhkəmə-hüquq sisteminin təkmilləşməsi başlıca şərtdir***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



QANUNÇULUQ
HÜQUQ JURNALI
№ 09 SENTYABR 2017

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Faiq Qurbanov**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**




Qeydiyyat tarixi: 18.04.2003,
Reyestr №-si: 439. İndeks 1032

"Qanunçuluq" jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş,
"Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
Ədliyyə Nəşriyyat Evi MMC-nin ünvanı: Xaqani küç., 14,
tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri:
"Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701;

Azərbaycan Beynəlxalq Bankın Səbail filialı, kod 805551,
VÖEN 9900001881, M/h 0137010002031,
SWİFT/Bik İBAZAZ-2X.

# Bu sayımızda:





## RƏSMİ MƏLUMAT

Nyu-Yorkda BMT Baş Assambleyasının 72-ci sessiyası keçirilib ....5
Astanada İslam Əməkdaşlıq Təşkilatının elm və texnologiya üzrə birinci Sammiti keçirilib ....11
Uğurlu neft strategiyasında yeni dövrün başlanğıcı ....15






## ƏDLİYYƏ NAZİRLİYİNDƏ

Azərbaycan və Latviya Ədliyyə nazirlikləri arasında əməkdaşlıq inkişaf edir ....17
Belarusun ədliyyə naziri Oleq Slijevskinin Azərbaycana səfəri ....19
Monteneqro ilə hüquqi sahədə əməkdaşlıq genişlənir ....21
Ədliyyə naziri Samux rayonunda vətəndaşları qəbul edib ....22
Azərbaycanın notariat sahəsində müsbət təcrübəsi maraqla qarşılanır ....23
Olqa Qrişina: Heç bir dövlətdə elektron notariatla işin təşkilinin Azərbaycanda olduğu dərəcə yüksək səviyyəsinin şahidi olmamışdıq (Tatarıstan Respublikası notariat palatasının Prezidenti Olqa İlyiniçna Qrişinanın AzərTac-a müsahibəsi) ....24
AŞPA-nın həmməruzəçiləri Ədliyyə Nazirliyində olublar ....26
Belarusla penitensiar sahədə səmərəli əməkdaşlıq edilir ....26





## MƏLUMATLAR, ELANLAR...

Ədliyyə Akademiyasının məlumatları ....27
Bələdiyyə nümayəndələri üçün seminarlar ....29

## YENİ QANUNLAR, FƏRMANLAR...

“Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin Fərmanı ....30
“Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş ”Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin Fərmanı ....30
“Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı ....31

## KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARLARI

“Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikası Qanununun 27.3-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin I hissəsinə, 29-cu maddəsinin I, II və III hissələrinə, 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılmasına dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı........................................33

# Nyu-Yorkda BMT Baş Assambleyasının 72-ci sessiyası keçirilib

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sessiyada iştirak edib





**”BMT islahatlarına dair siyasi bəyannaməyə dəstək” adlı yüksək səviyyəli tədbir**

**Sentyabrın 17-20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva BMT Baş Assambleyasının 72-ci sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində səfərdə olublar.**

Səfər zamanı BMT-nın baş qərargahında "BMT islahatlarına dair siyasi bəyannaməyə dəstək" adlı yüksək səviyyəli tədbir keçirilib. Dövlətimizin başçısının iştirak etdiyi tədbirdə ABŞ Prezidenti Donald Tramp çıxış edərək BMT-də islahatlara ehtiyacın olduğunu bildirib, qurumun baş katibi Antonio Quterreşin bu istiqamətdə səylərini yüksək qiymətləndirib. D.Tramp vurğulayıb ki, bürokratiya və qeyri-səmərəli idarəçilik BMT-yə tam gücü ilə çalışmağa imkan vermir.

BMT-nin Baş katibi Antonio Quterreş dünyada çoxlu sayda insanların münaqişələrdən, aclıqdan əziyyət çəkdiklərini bildirib. "Bu insanların yardımımıza ehtiyacı var. Biz qurumda ciddi islahatlar həyata keçirməli, işimizi daha səmərəli icra etməliyik. Biz qlobal təşkilatıq və insanların bizə olan etimadını doğrultmalıyıq", - deyə A.Quterreş vurğulayıb.

### • Ümumi müzakirələr



Birləşmiş Millətlər Təşkilatının baş qərargahında ümumi müzakirələrin açılışı olub. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva tədbirdə iştirak ediblər.

Ümumi müzakirələrin açılışında çıxış edən BMT-nin Baş katibi Antonio Quterreş hazırda dünyada bir çox problemlərin olduğunu vurğulayıb, ölkələr arasında etibar və etimadın aşağı düşdüyünü bildirib. Qaçqınların sayının artması, miqrasiyanın çağırışları, insan alveri, iqlim dəyişikliyi və digər mövcud qlobal problemlərə toxunan BMT-nin Baş katibi əminliyini

ifadə edib ki, yalnız birlikdə sülhə nail olmaq və qarşılıqlı etimadı bərpa etmək mümkündür.

BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının prezidenti Miroslav Layçak dünyada davam edən münaqişələrin ən çox sadə insanlara ziyan vurduğunu söyləyib. O, yoxsulluq, iqlim dəyişikliyi, beynəlxalq terrorizmin çağırışları ilə bağlı fikirlərini bölüşüb, bu problemlərin insanların həyatına birbaşa təsir etdiyini vurğulayıb. Miroslav Layçak qeyd edib ki, sülhün təmin edilməsi və müharibələrin qarşısının alınması BMT-nin fəaliyyətinin əsas istiqamətlərindən biri olmalıdır.

Sonra Braziliya Federativ Respublikasının Prezidenti Mişel Temer müzakirə olunan mövzularla bağlı fikirlərini bölüşüb.

Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp BMT-nin fəaliyyətinin daha da səmərəli olmasının vacibliyinə toxunub. O vurğulayıb ki, dövlətlər xalqların maraqlarını və gələcəyini müdafiə etməlidir. "Biz birlikdə çalışmalıyıq və təhdidlərə qarşı bir olmalıyıq", - deyən Donald Tramp Türkiyə, İordaniya və Livana Suriyadan olan qaçqınları qəbul etdiklərinə görə minnətdarlığını da bildirib.

***

Sentyabrın 20-də Nyu-Yorkda BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti Assambleya qarşısında çıxış edib.

## Sessiyanın açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı

Cənab sədr.

Xanımlar və cənablar,

25 ildən çoxdur ki, Ermənistan Azərbaycanın 20 faiz ərazisini - Dağlıq Qarabağı və ölkəmizin digər 7 rayonunu işğal altında saxlayır.

Dağlıq Qarabağ Azərbaycanın əzəli və tarixi torpağıdır. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin təxminən 20 faizi işğal altındadır. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistan azərbaycanlılara qarşı Ermənistanda, Dağlıq Qarabağda və Azərbaycanın digər 7 rayonunda etnik təmizləmə siyasəti həyata keçirib.

Ermənistan Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədib. Xocalı soyqırımı 10-dan artıq ölkə tərəfindən rəsmən tanınıb. 1992-ci il fevralın 26-da Ermənistan Xocalının 613 dinc sakinini, o cümlədən 106 qadın və 63 uşağı qətlə yetirərək, hərbi cinayət törədib. Bəşəriyyətə qarşı bu dəhşətli cinayəti törədən hərbi kriminallardan biri Ermənistanın hazırkı prezidentidir.

Aparıcı beynəlxalq təşkilatlar Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasını tələb edən qətnamələr qəbul ediblər. 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir.



İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurasının Parlament Assambleyası və Avropa Parlamenti kimi digər beynəlxalq təşkilatlar oxşar qərar və qətnamələri qəbul etmişlər. Ermənistan bu qərar və qətnamələri icra etmir. Ermənistan 24 ildir ki, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur və əfsuslar ki, o, buna görə cəzalandırılmır. Bəzi hallarda BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra olunur. Bizə gəldikdə isə 24 ildir ki, qətnamələr icra olunmur. Bu, ikili standarta əsaslanan yanaşmadır. Bu yanaşma qəbuledilməzdir. Ermənistana qarşı beynəlxalq sanksiyalar qəbul edilməlidir. BMT-nin mühüm islahatlarından biri Təhlükəsizlik Şurasının qətnamələrinin icra me-

xanizminin yaradılması olmalıdır.

Ermənistan status-kvonun dəyişməz qalması üçün əlindən gələni edir, substantiv danışıqların qarşısını alır. ATƏT-in Minsk qrupunun həmsədrləri - Fransa, Rusiya və ABŞ dəfələrlə bildirmişlər ki, status-kvo qəbuledilməzdir.

Sual verilir: necə olur ki, despotik və orta əsrlər rejiminin idarə etdiyi bu cür korrupsiyaya uğramış, uğursuz dövlət uzun illər ərzində beynəlxalq hüququ pozmağa, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə və dünyanın aparıcı ölkələrinin bəyanatlarına məhəl qoymamağa müvəffəq olur? Buna cavab isə ikili standartlardır. Təcavüzkara heç bir beynəlxalq təzyiq göstərilmir, Ermənistan diktatorluğuna heç bir beynəlxalq sanksiya tətbiq edilmir. Bu siyasətə son qoyulmalıdır.

Təcavüzkara münasibətdə bu cür siyasət təkcə ədalətsizliyi nümayiş etdirmir, eyni zamanda, Ermənistan diktatorluğunda elə bir illüziya yaradır ki, sanki onlar öz terror siyasətini bundan sonra da davam etdirə bilərlər.

Ötən ilin aprelində Ermənistan şəhər və kəndlərimizə hücum edərək, təmas xəttində növbəti hərbi cinayət törətdi. Bu hücum nəticəsində 6 dinc azərbaycanlı qətlə yetirildi, onların sırasında bir uşaq da var idi. Bundan əlavə, 26 mülki şəxs yaralandı. Yüzlərlə evlərimiz dağıdıldı.

Azərbaycan öz vətəndaşlarını müdafiə etməli oldu. Uğurlu əks-hücum nəticəsində Azərbaycan 3 işğal olunmuş rayonda - Ağdərə, Füzuli və Cəbrayılda bir neçə əraziləri azad etdi və öz bayrağını azad edilmiş ərazilərdə qaldırdı. Ermənistan rəhbərliyi bu dərsi yaddan çıxarmamalıdır. Əks təqdirdə, Ermənistanın növbəti təxribatının nəticələri onlar üçün daha ağrılı olacaq.

Döyüş meydanında məğlub olan Ermənistan şəhərlərimizə və kəndlərimizə hücum çəkmək kimi məkrli siyasətindən istifadə edir. 2017-ci il iyulun 4-də Ermənistan 82 və 120 millimetrlik mina və qumbaraatanlardan istifadə edərək, Füzuli rayonunun Alxanlı kəndinə məqsədli hücum etmiş, 2 dinc sakini - 2 yaşlı Zəhra Quliyevanı və onun nənəsini qətlə yetirmişdir.

2017-ci il avqustun 7-də Ermənistanla sərhəddə yerləşən Tovuz rayonunda 13 yaşlı oğlan erməni əsgərləri tərəfindən yaralanmışdır. Beynəlxalq ictimaiyyət erməni faşizminə və terroruna son qoymalıdır. Azərbaycan münaqişənin sülh yolu ilə həllinə sadiqdir, lakin, eyni zamanda, Ermənistanın hərbi təxribatı davam edərsə, ölkəmiz BMT-nin xartiyasına uyğun olaraq, öz vətəndaşlarını qoruyacaq və lazım gələrsə, təcavüzkarı 2016-cı ilin aprelində olduğu kimi yenidən cəzalandıracaq.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa olunmalıdır. Ermənistan işğalının yaratdığı böyük çətinliklərə baxmayaraq, Azərbaycan sürətlə və uğurla inkişaf edir.

Azərbaycan Birləşmiş Millətlər Təşkilatının fəal üzvüdür.

2011-ci ildə Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi. 155 ölkə Azərbaycana səs verdi. Üzv dövlətlərin tam əksəriyyəti Azərbaycana və onun siyasətinə öz dəstəyini nümayiş etdirdilər. Həmin vaxt cəmi 20 yaşı olan ölkə üçün bu, böyük nailiyyət oldu. Azərbaycan müasir, sabit və demokratik ölkədir. Demokratiyanın inkişafı və insan hüquqlarının müdafiəsi hökumətimizin əsas prioritetlərindəndir. Azərbaycanda bütün fundamental azadlıqlar, o cümlədən ifadə, mətbuat, yığıncaq və dini azadlıqlar tam şəkildə təmin edilir.

Azərbaycan dünyanın tanınmış multikulturalizm mərkəzlərindən biridir. Multikulturalizm Azərbaycanda dövlət siyasətidir. Bütün etnik qrupların və dinlərin nümayəndələri Azərbaycanda sülh və harmoniya şəraitində yaşayırlar. Azərbaycanda 2016-cı il "Multikulturalizm İli", 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan olunmuşdur.

Ərazisində demək olar ki, milli azlıqlar olmadığı, monoetnik ölkə kimi tanınan və ksenofobiya dövlət siyasəti olan Ermənistandan fərqli olaraq, Azərbaycan çoxmillətli ölkədir, cəmiyyətimizin mədəni, etnik və dini müxtəlifliyi böyük sərvətimizdir. İslamofobiyanı pik həddinə çatdırmış Ermənistan işğal olunmuş ərazilərdə bütün məscidlərimizin dağıdılması kimi bir çox vandalizm aktlarını törətmişdir.

Azərbaycan dinlərarası dialoqun gücləndirilməsinə yönəlmiş çox sayda beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir. Onların sırasında BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunu, Dünya Dini Liderlər Forumunu, dörd dəfə keçirilmiş Mədəniyyətlərarası Dialoq və beş dəfə keçirilmiş Bakı Beynəlxalq Humanitar forumlarını və digər mühüm tədbirləri qeyd etmək olar.

İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvü olan Azərbaycan 2008-ci ildə BMT-nin dəstəklədiyi "Bakı Prosesi"nə start verdi. "Bakı Prosesi"nin əsas məqsədi müsəlman aləmi ilə

Avropa arasında dialoqu, tərəfdaşlığı və əməkdaşlığı gücləndirməkdir.

2015-ci ildə Azərbaycan birinci Avropa Oyunlarına ev sahibliyi etdi. 50 ölkədən gəlmiş 6000 atlet həmin Oyunlarda iştirak etdi. 2017-ci ildə Azərbaycan 54 ölkəni təmsil edən təxminən 3000 idmançının iştirakı ilə dördüncü İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etdi.

İki il ərzində paytaxtımız Bakıda Avropa və İslam Oyunları keçirildi. Bu, həmçinin multikulturalizmin təşviq edilməsinə böyük töhfə oldu. Azərbaycan yığması birinci Avropa Oyunlarında ikinci yeri, İslam Həmrəyliyi Oyunlarında isə birinci yeri tutdu. Bu, göstərir ki, Azərbaycan dünyanın aparıcı idman ölkələrindən biridir. İdman nailiyyətlərimizin digər sübutu Azərbaycanın "Rio 2016" Olimpiya Oyunlarında medalların sayına görə 14-cü yeri tutması oldu. Bütövlükdə, Azərbaycan 18 medal qazandı.

Azərbaycan sosial və iqtisadi sahələrdə böyük inkişafa nail olub.

2004-cü ildən başlayaraq Azərbaycanın iqtisadiyyatı 3 dəfədən çox artmış, ölkəmizdə 1 milyon 600 mindən artıq iş yeri açılmışdır. İşsizlik səviyyəsi dünyada ən aşağı göstəricilərdən biridir - 5 faiz. Prioritetlərimizdən biri yoxsulluğun azaldılması idi. 2004-cü ildə yoxsulluğun səviyyəsi 40 faizdən artıq idi. İndi bu, cəmi 5-6 faizdir. Nağd valyuta ehtiyatlarımız ölkənin ÜDM-nə bərabərdir. Xarici dövlət borcu ÜDM-in 20 faizindən azdır.

2009-cu ildə Azərbaycan Dünya Bankının "Doing Business" hesabatında "Dünyanın aparıcı islahatçı ölkəsi" kimi qiymətləndirilmişdir. Davosun Dünya İqtisadi Forumunun "2016-2017-ci illər üzrə qlobal rəqabətə davamlılıq hesabatında" Azərbaycan 138 ölkə sırasında 37-ci yer tutmuşdur.

2015-ci ildə Azərbaycan Minilliyin İnkişaf Məqsədlərinin icrasında əldə etdiyi böyük nailiyyətinə görə həmin ilin "Cənub-Cənub" mükafatını almış və 2010-cu ildən etibarən yüksək insan inkişafı kateqoriyalı ölkələr sırasına daxil edilmişdir.

Azərbaycanın kosmik sənayesinin sürətli inkişafı, 2 telekommunikasiya və yer səthinin müşahidəsi peykləri - "Azerspace" və "Azersky" və bu yaxınlarda buraxılacaq "Azerspace-2" adlanan üçüncü peyk ölkəmizin dünya kosmik klubunun üzvləri sırasına daxil olmasını mümkün etdi.

Bu gün Azərbaycan nəinki sənaye və kənd təsərrüfatı, o cümlədən əqli məhsullarını ixrac edir. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi - "ASAN xidmət" ictimai münasibətlərin və xidmətlərin müasir modelidir.

Eyni yerdə 251 xidmətin göstərilməsi, tam şəffaflıq, korrupsiya və rüşvətxorluğun sıfıra endirilməsi "ASAN xidmət"i bir çox ölkələr üçün cəlbedici edib.

Sırf Azərbaycan brendi olan "ASAN xidmət" yaradıldığı gündən ötən 5 il ərzində 5 milyon insana 1 milyon 600 min xidmət göstərib. Müraciətlərin ümumi sayı 17 milyona çatıb. "ASAN xidmət"in ictimaiyyət tərəfindən bəyənilməsi 98 faiz təşkil edir.

2015-ci ildə dövlət xidmətlərinin əhəmiyyətli dərəcədə sadələşdirilməsinə, təkmilləşməyə verdiyi töhfəsinə və yaradıcı olmağına görə "ASAN" Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidməti Mükafatına layiq görülmüşdür.

Siyasətimizin əsas məqsədi vətəndaşlarımızın rifah halının daha da yaxşılaşdırılmasıdır. 2004-cü ildən etibarən ölkəmizdə əmək haqları 5,6 dəfə, pensiyalar isə 8,2 dəfə artmışdır.

Xarici maliyyə dəstəyi olmadan biz erməni işğalından əziyyət çəkən qaçqın və məcburi köçkünlər üçün təxminən 100 yeni qəsəbə və şəhərcik salmışıq. Bu günə qədər 250 mindən artıq insanın həyat şəraiti yaxşılaşdırılıb, onlara yeni evlər və mənzillər verilib. Həmin şəhərcik və qəsəbələrdə 152 məktəb, 59 tibb mərkəzi və 60 bağça tikilmişdir.

Ümumilikdə, 2004-cü ildən başlayaraq 3000-dən artıq məktəb, 600-dən çox xəstəxana və tibb mərkəzləri tikilmiş, yaxud təmir edilmişdir. Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Hər il 5 milyondan artıq insan, yəni ölkə əhalisinin yarısı tamamilə dövlət büdcəsindən maliyyələşən tibbi yoxlamadan keçir.

Azərbaycan qlobal enerji bazarında mühüm rol oynayır. Beynəlxalq bazarlarda etibarlı neft və qaz təchizatçısı olan Azərbaycan dünyanın bir çox ölkələri üçün enerji təhlükəsizliyini təmin edir. Bu gün Azərbaycan öz beynəlxalq tərəfdaşları ilə birlikdə "Cənub Qaz Dəhlizi" layihəsinin başa çatdırılmasına çox yaxındır. Sərmayələrinin həcmi 40 milyard dollara çatan bu layihə dünyanın ən iri infrastruktur layihələrindən biridir.

Digər mühüm prioritet nəqliyyatdır. Avropa ilə Asiya arasında yerləşən Azərbaycan Avrasiyada aparıcı nəqliyyat qovşaqlarından birinə çevrilmək istiqamətində öz coğrafi mövqeyindən müdrikcəsinə istifadə edir.

Son illərdə Azərbaycanda 6 beynəlxalq hava limanı tikilmiş, 11 min kilometr müasir şosse və yollar çəkilmişdir. Xəzər dənizində Azərbaycanın 270 gəmidən ibarət ən iri ticarət donanması var.

Azərbaycanda müasir gəmiqayırma zavodu bütün

növ və ölçüdə gəmiləri tikməyə qadirdir. Azərbaycan özünün dəmir yol infrastrukturunu müasirləşdirir. Ərazimizin tam əksəriyyəti dəmir yolları ilə əhatə olunur.

Gələn il biz Xəzər regionunda ən iri beynəlxalq dəniz ticarəti limanını istismara verəcəyik.

Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinə böyük sərmayələr yatırır. Ölkəmizdən keçən hər iki marşrut Şərqdən Qərbə, Şimaldan Cənuba gedən ən qısa yollar olacaq.

Sonda bildirmək istərdim ki, ötən il biz müstəqilliyimizin bərpasının 25-ci ildönümünü qeyd etdik. Azərbaycanın uğurlu inkişafı bir daha göstərir ki, yalnız azad və müstəqil olduqda, ölkənin taleyi öz xalqının əlində olduğu halda uğur əldə etmək olar. Azərbaycan xalqının ən böyük xoşbəxtliyi ondan ibarətdir ki, biz xalqımızın milli maraqlarına əsaslanan müstəqil siyasət aparan müstəqil ölkədə yaşayırıq.

Sağ olun.

Səfər zamanı Prezident İlham Əliyev Birləşmiş Millətlər Təşkilatının baş qərargahında təşkil olunan rəsmi dövlət naharında, eyni zamanda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və xanımının adından BMT-nin Baş Assambleyasının 72-ci sessiyası ilə əlaqədar təşkil edilən qəbulda iştirak edib. Qəbulda birinci xanım Mehriban Əliyeva da iştirak edib.



### • BMT-nin baş katibi Antonio Quterreş ilə görüş



Dövlətimizin başçısı BMT-nın baş qərargahında BMT-nin baş katibi Antonio Quterreş ilə görüşüb.

Antonio Quterreş Azərbaycan ilə BMT arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu, qarşılıqlı anlaşmanın mövcudluğunu vurğulayaraq qeyd edib ki, Azərbaycan BMT-nin layihələrində fəal iştirak edir. Qurumun baş katibi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən narahatlığını ifadə edib, münaqişənin həlli ilə bağlı həmsədrlərin əllərindən gələni edəcəklərinə ümidvar olduğunu bildirib.

Prezident İlham Əliyev Azərbaycanın BMT çərçivəsində böyük işlər gördüyünü vurğulayıb, BMT-nin Sivilizasiyalar Alyansının qlobal forumları, mədəniyyətlərarası dialoq forumları, Avropa Şurası ilə əməkdaşlıq çərçivəsində Bakıda keçirilən tədbirlərdən danışıb və bu cür layihələrin ölkəmizdə davam etdiyini söyləyib.

Ölkəmizin başçısı Azərbaycan iqtisadiyyatının inkişafından bəhs edib, Ermənistan tərəfinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlara mane olduğunu, bu münaqişənin sülh yolu ilə həlli istiqamətində təşəbbüslərin nəticəsiz olduğunu vurğulayıb, Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinin bərpası barədə danışıb.

## • ABŞ Etnik Anlaşma Fondunun sədri ravvin Mark Şnayer və bir sıra dini liderlərlə görüş




Nyu-Yorka səfəri çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ Etnik Anlaşma Fondunun sədri ravvin Mark Şnayer və bir sıra xristian yevangelik dini liderləri ilə də görüşü olub.

Görüşdə ABŞ yəhudi icması adından Azərbaycan-İsrail əməkdaşlığının inkişafından məmnunluq ifadə olunub, "İqls Vinqs" təşkilatı ilə əlaqələrə toxunularaq Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə dinlərarası dialoq və tolerantlıq sahələrində həyata keçirilən işlərin başqa ölkələrə nümunə olduğu vurğulanıb, əməkdaşlığımızın genişlənəcəyinə əminlik bildirilib.

Söhbət zamanı Prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzü barədə məlumat verib, ölkəmizin qlobal enerji təhlükəsizliyinin təmin olunması sahəsində həyata keçirdiyi işlərdən danışıb.

## • Amerika yəhudi təşkilatlarının nümayəndələri ilə görüş



Dövlətimizin başçısı Nyu-Yorkda Amerika Yəhudi Təşkilatının, Dünya Yəhudi Konqresinin, "Bnai Brith International"ın, Avrasiya Yəhudilərini dəstəkləyən Milli Koalisiyanın, Şimali Amerika Yəhudi Federasiyalarının, Amerika Yəhudi Təşkilatları Prezidentlərinin Konfransının, "Vaad L'Hatzolas Nidchei Yisroel" yəhudi təşkilatının rəhbərlərinin daxil olduğu Amerika yəhudi təşkilatlarının nümayəndələri ilə də görüşüb.

Görüşdə Amerika yəhudi təşkilatlarının rəhbərləri Azərbaycanda digər icmalar kimi, yəhudi icmasının da qarşılıqlı anlaşma və əmin-amanlıq şəraitində yaşaması üçün yaradılan şəraitə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Onlar Azərbaycanda sabitliyin və təhlükəsizliyin yüksək səviyyədə olduğunu qeyd edərək, ölkəmizin multikulturalizm və tolerantlıq siyasətinə sadiqliyini yüksək qiymətləndiriblər.

Söhbət zamanı, həmçinin Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər, Azərbaycanın iqtisadi inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# Astanada İslam Əməkdaşlıq Təşkilatının elm və texnologiya üzrə birinci Sammiti keçirilib

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə iştirak edib






**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının elm və texnologiya üzrə birinci Sammitində iştirak etmək üçün sentyabrın 9-10-da Qazaxıstan Respublikasında işgüzar səfərdə olub.**

Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin ötən ilin aprelində İƏT-in İstanbulda keçirilən XIII Zirvə toplantısında irəli sürdüyü təşəbbüsə əsasən təşkil olunmuş Sammitdə təşkilata üzv olan 57 ölkənin dövlət və hökumət başçıları, elm və texnologiya məsələləri üzrə məsul nazirlər, müşahidəçi ölkələrdən, eləcə də beynəlxalq təşkilatlardan 80-dək nümayəndə heyəti iştirak edib.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşılayıb, birgə foto çəkdirilib.

Müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başlayan Sammitin açılış sessiyasında Qazaxıstan Prezidenti Nursultan Nazarbayev çıxış edərək son zamanlar İslam ümmətinin çətin sınaqlarla üzləşdiyini, müsəlman ölkələrində ekstremist və terrorçu təşkilatların yayıldığını təəssüf hissi ilə qeyd edib, bundan daha çox İslam ölkələrinin əziyyət çəkdiyini, eyni zamanda, bunun Qərb ölkələrində islamofobiya meyillərinin, eləcə də müsəlmanlara qarşı zorakılığın artmasına səbəb olduğunu vurğulayıb. Myanmada müsəlmanlara qarşı yaşanan kütləvi zorakılıq hallarının İslam ölkələrində dərin narahatlıq doğurduğunu ifadə edən Qazaxıstan Prezidenti bu problemin dialoq yolu ilə BMT-nin əsas prinsipləri əsasında həll edilməsinin vacibliyini bildirib. Prezident Nursultan Nazarbayev İslam ölkələrində elm və texnologiyanın inkişaf etdirilməsi üçün "G-20" formatında beynəlxalq forumun yaradılmasının vacibliyini, bu sahədə




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin**
**“XXI əsrdə elmin cəmiyyətə artan təsiri” mövzusunda sessiyada çıxışı**

Qərb ölkələri ilə səmərəli əməkdaşlığın qurulmasının önəmini qeyd edərək bu baxımdan belə sammitlərin əhəmiyyətini vurğulayıb. O, Astana Sammitinin İslam dünyasında əməkdaşlığın inkişafına təkan verəcəyinə əminliyini ifadə edib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan müasir dövrdə cəmiyyətin tərəqqisində mühüm rol oynayan elm və texnologiyanın İslam ölkələrində inkişaf etdirilməsinə həsr olunan Sammitin önəmini vurğulayıb. Türkiyənin son illər elm və texnologiya sahəsində təhsil imkanlarının genişləndirilməsinə, mühüm proqram və tədbirlərin reallaşdırılmasına xüsusi diqqət yetirdiyini, ölkəsində İƏT-ə üzv dövlətlərdən 9500 tələbənin təhsil aldığını qeyd edib. İslam aləmində son dövrdə yaşanan proseslərin müsəlman ölkələri arasında əməkdaşlığın daha da gücləndirilməsi zərurətini ortaya çıxardığını deyən Türkiyə Prezidenti elm və texnologiyanın inkişaf etdirilməsi məqsədilə irəli sürülən təşəbbüslərə siyasi dəstəyin verilməsinin vacibliyini önə çəkib.

Sammitdə, həmçinin İran, Pakistan, Mavritaniya, Özbəkistan və Qvineyanın prezidentləri çıxış edərək elm və texnologiya sahəsində əməkdaşlığın genişləndirilməsinin önəmini qeyd ediblər.

Açılış sessiyasından sonra Sammit işini "XXI əsrdə elmin cəmiyyətə artan təsiri" mövzusunda sessiya ilə davam etdirib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sessiyada çıxış edib.

Dövlətimizin başçısı İslam Əməkdaşlıq Təşkilatının (İƏT) fəal üzvü olan Azərbaycanın təşkilata üzv ölkələrlə həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq etdiyini, ölkəmizin üzv olduğu beynəlxalq təşkilatlarda müsəlman ölkələrini daim dəstəklədiyini vurğulayıb, İƏT-in daim Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı çərçivəsində həllini dəstəkləyən ədalətli mövqe nümayiş etdirdiyini və Azərbaycanın ədalətli mövqeyini əks etdirən bir çox qətnamələr qəbul etdiyini söyləyərək Ermənistanın Azərbaycana davam edən hərbi təcavüzü, torpaqlarımızın 20 faizinin işğalı, Xocalı soyqırımı barədə məlumat verib.

Prezident İlham Əliyev İslam həmrəyliyi işinə böyük töhfə verən ölkəmizin dünyanın müxtəlif bölgələrində baş qaldıran islamofobiyaya qarşı fəal mübarizə apardığını qeyd edərək müsəlmanlara qarşı törədilən cinayətləri, xüsusilə də son vaxtlar Myanmada Rohingiya müsəlmanlarına qarşı həyata keçirilən qətliam və kütləvi zorakılıq hallarını qətiyyətlə pisləyib, beynəlxalq təşkilatları, dünya ictimaiyyətini, siyasi və dini liderləri Myanmada baş

verən hadisələrin qarşısının alınması üçün zəruri addımlar atmağa çağırıb, Azərbaycanın Rohingiya qaçqınlarına humanitar yardım - 100 ton ərzaq məhsulu göndərdiyini bildirib.

Dövlətimizin başçısı 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunduğunu diqqətə çatdıraraq bu il ölkəmizdə IV İslam Həmrəyliyi Oyunlarının keçirildiyini söyləyib, respublikamızın son illərdə sürətlə inkişaf etdiyini və bu inkişafı xarakterizə edən sosial-iqtisadi göstəriciləri, Azərbaycanda elm və müasir texnologiyaların uğurlu inkişafını vurğulayaraq ölkəmizin bundan sonra da İƏT-in fəal üzvü kimi İslam həmrəyliyinin möhkəmlənməsinə öz töhfəsini qeyd edib.

***

Sessiyada, həmçinin Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani, Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn, Banqladeş Xalq Respublikasının Prezidenti Abdul Hamid, İndoneziya Respublikasının vitse-prezidenti Yusuf Kalla, Komor Adaları İttifaqının vitse-prezidenti Abdallah Said Sarouma, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Bakir İzetbeqoviç, Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro, Səudiyyə Ərəbistanı Krallığının energetika, sənaye və təbii sərvətlər naziri Xalid əl-Falih çıxış ediblər.

Tədbirdə İslam dünyasının elmi və texnoloji inkişafı üçün siyasi dəstək prosesinin başlanmasını nəzərdə tutan Astana Bəyannaməsi qəbul edilib.

Sammit çərçivəsində "Davamlı inkişafda elm və texnologiyaların rolu", "Müasir iqtisadiyyatda rəqabət və innovasiyalar", "Elm və texnologiyalar sahəsində əməkdaşlığın inkişafı" mövzularında sessiyalar keçirilib, zəngin təbii resurslara malik olan müsəlman ölkələrində yoxsulluq, aclıq, işsizlik problemlərinə, eləcə də elm, təhsil, texnologiya sahələrində inkişaf məsələlərinə dair müzakirələr aparılıb. Bununla yanaşı, müsəlman ölkələrində gənclərin üzləşdikləri problemlər, onların elm və təhsil sahələrinə daha geniş cəlb edilməsi, habelə zorakı ekstremizm, terrorizm ilə mübarizə məsələləri ətrafında da fikir mübadiləsi aparılıb.

***

Səfər zamanı Azərbaycan Prezidenti İlham Əliyev "EXPO 2017 Astana" beynəlxalq sərgisində Azərbaycanın və Qazaxıstanın milli pavilyonları ilə tanış olub. Azərbaycan da daxil olmaqla 115 ölkə, 22 beynəlxalq təşkilatın təmsil olunduğu sərginin keçirilməsi enerji sahəsi üzrə əməkdaşlığın daha da inkişafına, həmçinin iştirakçı ölkələrdə tətbiq olunan yeni texnologiyaların mübadiləsinə imkan yaradır. Ümumi sahəsi 174 hektar olan sərgidə gələcəyin texnologiyaları, dünyanın enerjiyə qənaəti və bu sahədə ən son ixtiralar, yeniliklər, nüvə enerjisi kimi enerji növləri nümayiş etdirilib.




**“EXPO 2017 Astana” beynəlxalq sərgisində Azərbaycanın və Qazaxıstanın milli pavilyonları ilə tanışlıq**

## • Azərbaycan və İran prezidentlərinin görüşü




Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin görüşü olub.

Dövlətimizin başçısı Həsən Ruhanini yenidən İran Prezidenti vəzifəsinə seçilməsi münasibətilə təbrik edib, xeyli sayda keçirilən görüşləri məmnunluqla xatırladaraq həmin görüşlər zamanı səmərəli danışıqların aparıldığını vurğulayıb. Ölkələrimiz arasında imzalanan sənədlərin uğurla icra olunduğunu qeyd edən Prezident İlham Əliyev Azərbaycan-İran dostluq əlaqələrinin bundan sonra da möhkəmlənəcəyinə əminliyini bildirib.

Prezident Həsən Ruhani ikitərəfli münasibətlərin sürətlə inkişaf etdiyini vurğulayaraq vurğulayıb ki, biz ikitərəfli əlaqələrimizin inkişafı ilə bağlı qarşıya qoyduğumuz məqsədləri müvəffəqiyyətlə yerinə yetirmək üçün səylərimizi birləşdirməliyik. Qeyd edib ki, İranın yeni seçilən hökuməti də Azərbaycan ilə dostluq münasibətlərinin inkişaf etdirilməsi işinə sadiqdir.

Görüşdə, həmçinin ölkələrimiz arasında həyata keçirilən uğurlu layihələrdən bəhs olunaraq, dəmir yolu layihəsi xüsusi vurğulanıb, müxtəlif, o cümlədən energetika, iqtisadi-ticari, elm, investisiya qoyuluşu sahələrində əlaqələrin genişləndirilməsi ilə bağlı faydalı fikir mübadiləsi aparılıb.

Eyni zamanda, regional və beynəlxalq əməkdaşlıq, terrorizmə qarşı mübarizə məsələləri müzakirə olunub.

## • Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Bakir İzetbeqoviç ilə görüş

Dövlətimizin başçısı İlham Əliyevin Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Bakir İzetbeqoviç ilə görüşündə isə ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi vurğulanıb, ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların indiki vəziyyəti və perspektivləri müzakirə olunub.




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına işgüzar səfəri sentyabrın 10-da başa çatıb.




# Uğurlu neft strategiyasında yeni dövrün başlanğıcı

**"Azəri", "Çıraq" və "Günəşli" yataqları üzrə yeni Sazişin imzalanması Azərbaycanın gələcək inkişafına zəmanət verir**

**23 il öncə Bakının Gülüstan sarayında ulu öndər Heydər Əliyevin sədrliyi ilə neft salnaməsinə qızıl hərflərlə yazılan "Əsrin müqaviləsi"nin imzalanması mərasimi keçirildi və bununla da ölkəmizin uğurlu inkişafına təkan verildi. Ümummilli lider Heydər Əliyevin neft strategiyasının təntənəsi olan bu müqavilə həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər sırasına düşdü.**

1997-ci ilin noyabrının əvvəlində isə "Əsrin müqaviləsi" çərçivəsində "Çıraq" platformasından ilkin neft alındı və hasilat başlandı. Bu, Azərbaycanın yeni neft strategiyasının uğurlarının başlanğıcı idi. 1998-ci ildə neftimiz Bakı-Novorossiysk kəməri ilə Qara dənizə ixrac edilməyə başlandı. 1999-cu ilin aprelində Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verildi. "Çıraq" yatağından hasil olunan neftin Supsa limanından ixracı ilə Azərbaycan nefti ilk dəfə olaraq iki istiqamət üzrə dünya bazarlarına çıxarılmağa başlandı. 2002-ci ildə ulu öndər Heydər Əliyevin şəxsən iştirakı ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməli qoyuldu və 2006-cı ilin mayında Azərbaycan nefti Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri vasitəsilə Ceyhan limanına çatdırıldı.

"Əsrin müqaviləsi"nin imzalanmasından ötən dövr ərzində uğurlu nəticələr əldə olunub. "Azəri-Çıraq-Günəşli"yə 33 milyard ABŞ dolları həcmində sərmayə yatırılıb, 436 milyon ton neft hasil edilib. Ölkəmiz isə bundan 125 milyarddan çox birbaşa mənfəət əldə edib.

Sentyabrın 14-də ölkəmizin həyatında daha bir əlamətdar və tarixi gün yaşanıb. Bakıda Heydər




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sazişin imzalanması mərasimində çıxışı**

Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilib və yenidən tərtib olunan sazişin imzalanması mərasimi keçirilib. Sazişi Azərbaycan Hökumətinin, SOCAR-ın, BP, "Chevron", IMPEX, "Statoil", "ExxonMobil", "TP", ITOCHU və "ONGC Videsh" şirkətlərinin rəsmiləri imzalayıblar.

Hasilatın Pay Bölgüsü haqqında düzəliş edilmiş və yenidən işlənmiş sazişə əsasən, BP layihənin operatoru olaraq qalacaq. Növbəti 32 il müddətində "Azəri-Çıraq-Günəşli" yataqlarına 40 milyard dollardan artıq sərmayə qoyulacaq. Bu sazişin ardınca SOCAR və tərəfdaşları arasında "Azəri-Çıraq-Günəşli" müqavilə ərazisi üçün əlavə bir hasilat platformasının qiymətləndirilməsi məqsədilə mühəndis-layihə işlərinin aparılması haqqında razılaşma əldə olunub.

Bu müqavilənin ölkəmiz üçün çox böyük əhəmiyyəti var. Belə ki, "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadıldı. Bu kontrakt Azərbaycan üçün daha da əlverişlidir, baxmayaraq ki, 1994-cü ildə imzalanan kontrakt da respublikamızın maraqlarını tam təmin edirdi. Bu dəfə isə daha da yaxşı şərtlərlə kontrakt imzalanıb.

Sazişin imzalanması mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirib ki, "Əsrin müqaviləsi" ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən biridir. Bu gün bütün Azərbaycan xalqı bu sazişin gözəl nəticələrini öz həyatında görür. Yeni imzalanan saziş isə 1994-cü ildə imzalanan sazişdən daha böyükmiqyaslıdır. Dövlət başçısı bu gün dünyada ayaqda möhkəm dayanan ölkə kimi tanınan Azərbaycanın aparıcı xarici neft, enerji şirkətləri ilə çox uğurlu, qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq formatı yaratdığını söyləyərək "Əsrin müqaviləsi"nin 23 il ərzində ölkəmizə çox böyük siyasi, iqtisadi dividendlər qazandırdığını vurğulayıb.

Ölkə rəhbəri çıxışında, həmçinin yeni müqavilənin bir neçə əsas parametrini diqqətə çatdırıb. Bildirib ki, kontrakt imzalanandan sonra ölkəmizə xarici investorlar tərəfindən 3,6 milyard dollar həcmində bonus ödəniləcək, SOCAR-ın "AzAÇG" şirkəti podratçı kimi kontraktın icrasında iştirak edəcək. Bundan başqa, kontrakta əsasən, SOCAR-ın payı 11,6 faizdən 25 faizə qaldırılır və Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75 faiz təşkil edəcək. Müqavilənin əsas şərtləri göstərir ki, Azərbaycanın gələcək inkişafı, maliyyə imkanlarının genişləndirilməsi üçün bu kontraktın çox böyük əhəmiyyəti var.

Yenidən işlənmiş sazişin şərtləri isə deməyə əsas verir ki, növbəti 32 il ərzində AÇG-nin ölkəmizə verəcəyi iqtisadi mənfəət maksimum həddə olacaq. Bununla bərabər, xarici tərəfdaş şirkətlərin Azərbaycan iqtisadiyyatına inamı daha da güclənəcək.

# Azərbaycan və Latviya Ədliyyə nazirlikləri arasında əməkdaşlıq inkişaf edir




**Latviyanın ədliyyə naziri Dzintars Rasnaçs ilə görüş və iki ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması**



**Latviya Seyminin sədri İnara Murnietse ilə görüş**



**Latviyanın Ali Məhkəməsinin sədri İvars Biçkoviçs ilə görüş**




**"Elektron qolbaq" qurğusu ilə tanışlıq**

**Beynəlxalq hüquqi əməkdaşlığın genişləndirilməsi məqsədilə ölkəmiz tərəfindən xarici, xüsusilə Avropa İttifaqı dövlətləri ilə ikitərəfli münasibətlər inkişaf etməkdədir.**

Belə ki, Latviya Ədliyyə Nazirliyinin yüksək səviyyəli nümayəndə heyəti bu il ölkəmizdə səfərdə olub, məhkəmə-hüquq sistemi və aparılan islahatlarla tanış olub və hüquqi əlaqələrin möhkəmləndirilməsi məqsədi ilə Azərbaycan və Latviya Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması qərara alınıb. Həmin sənəd qısa müddətdə razılaşdırılaraq onun imzalanması məqsədilə Azərbaycanın ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov sentyabrın 13-15-də nümayəndə heyəti ilə Latviyada səfərdə olub.

Nümayəndə heyətinin tərkibinə nazirliyin Təşkilat-nəzarət baş idarəsinin rəisi Elçin Qasımov, Qeydiyyat və notariat baş idarəsinin rəisi İlqar Məmmədov, Penitensiar xidmətin rəis müavini Hüseyn Əlixanov və Beynəlxalq əməkdaşlıq idarəsinin rəisi Adil Əbilov daxil olunublar.

Səfər çərçivəsində Latviyanın ədliyyə naziri Dzintars Rasnaçs ilə keçirilmiş görüşdə ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, dövlət başçılarının qarşılıqlı səfərlərinin bu əlaqələrin möhkəmlənməsində xüsusi rolu qeyd olunaraq, cari ilin





Riqa regional məhkəməsi ilə tanışlıq





Oleyne ixtisaslaşdırılmış penitensiar müəssisəsi ilə tanışlıq





iyulunda Azərbaycan Prezidenti İlham Əliyevin Latviyaya səfəri zamanı iki ölkə arasında imzalanmış strateji tərəfdaşlığa dair Birgə Bəyannamənin və digər mühüm sənədlərin ikitərəfli münasibətlərimizin genişləndirilməsinə böyük təkan verdiyi vurğulanıb.

Həmçinin, hüquqi sahədə əməkdaşlığın perspektivləri müzakirə olunub, hər iki dövlətdə ədliyyə və məhkəmə sistemində aparılan islahatlar barədə fikir və təcrübə mübadiləsi aparılıb, ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlərə və əldə olunan nailiyyətlərə maraq göstərilərək, latviyalı nazir yaxın zamanda Azərbaycana səfər etmək niyyətini bildirib.

Sonra nazirliklər arasında məhkəmə, ədliyyə, o cümlədən penitensiar sistemin təkmilləşdirilməsi, elektron ədliyyə, probasiya, ədliyyə işçilərinin və hakimlərin tədrisi, məhkəmə qərarlarının icrası, məhkəmə ekspertizası sahəsində birgə tədbirlərin keçirilməsini nəzərdə tutan Əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Nazirlər mərasimdə çıxış edərək bu mühüm sənədin ikitərəfli münasibətlərin inkişafında müstəsna rolunu qeyd edərək, müxtəlif istiqamətlər üzrə qarşılıqlı fəaliyyətin genişlənəcəyinə əminliklərini ifadə ediblər.

Azərbaycanın ədliyyə naziri və Latviya Seyminin sədri İnara Murnietse arasında işçi görüş olub. Xanım İ.Murnietse ölkəmizə səfərini məmnunluqla xatırladıb, iki ölkə arasında əlaqələrin dinamik inkişafını qeyd edib, parlamentlərarası əlaqələri təqdir edib. Həmçinin, hazırkı səfərin ikitərəfli münasibətlərin dərinləşməsinə töhfə verəcəyinə əminlik ifadə olunub. Tədbirdə Latviya Seyminin Komitə sədri, Azərbaycanla parlamentlərarası dostluq qrupunun sədr müavini Roman Naudinş iştirak edib.

Səfər zamanı Latviyanın Ali Məhkəməsinin sədri İvars Biçkoviçs ilə görüş keçirilərək ədalət mühakiməsinin səmərəliliyi, məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, elektron məhkəmənin tətbiqi, hakimlərin seçimi və tədrisi müzakirə edilib, ölkəmizdə müstəqil məhkəmə özünüidarə orqanı və bu sahədə geniş səlahiyyətlərə malik olan Məhkəmə-Hüquq Şurasının fəaliyyətinə maraq göstərilib.

Eyni zamanda, Latviyanın ən böyük məhkəməsi olan və apellyasiya instansiyası kimi fəaliyyət göstərən Riqa Regional Məhkəməsində olaraq onun işi və müasir texnologiyaların tətbiqi ilə tanış olunub, qurumun rəhbərliyi və hakimlər ilə görüş keçirilərək məhkəmə islahatlarına dair faydalı danışıqlar aparılıb.

Azərbaycan Prezidentinin tapşırığına əsasən penitensiar sistemin təkmilləşdirilməsi, Probasiya Xidmətinin yaradılması üzrə tədbirlərin həyata keçirildiyi nəzərə alınaraq Latviyanın Dövlət Probasiya Xidmətinin rəhbəri Mixail Papsueviç ilə ayrıca görüş keçirilib, probasiya institutunun tətbiqi və inkişaf perspektivlərinə dair müzakirələr aparılıb, elektron nəzarət sistemi, xüsusilə "elektron qolbaq"ın tətbiqi ilə əyani tanış olunub, eyni zamanda Elektron Monitorinq Mərkəzinə baş çəkilərək fəaliyyəti ilə maraqlanılıb.

Nümayəndə heyəti, həmçinin yeni inşa olunmuş Oleyne ixtisaslaşdırılmış penitensiar müəssisəsinə baş çəkərək qurumun fəaliyyəti, məhkumların saxlanma şəraiti, onlara tibbi, psixoloji yardımın göstərilməsi və bu sahədə tətbiq olunan yeni üsullarla tanış olub, faydalı təcrübə mübadiləsi aparılıb.

Bütün görüşlərdə həmsöhbətlərin diqqəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin acı nəticələrinə, torpaqlarımızın 20%-nin işğalı və bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi faktına cəlb olunmaqla, münaqişəyə və Xocalı soyqırımına dair əyani vəsaitlər və broşürlər təqdim edilib. Latviya tərəfi münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində beynəlxalq hüquq normalarına uyğun həllinə tərəfdar olduğunu, ölkəmizin haqlı mövqeyini dəstəklədiyini bildirib.

Tədbirlərdə ölkəmizin Latviyadakı səfiri Cavanşir Axundov iştirak edib.

# Belarusun ədliyyə naziri Oleq Slijevskinin Azərbaycana səfəri



Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət



Şəhidlərin xatirəsinə ehtiram

**Azərbaycan-Belarus dostluq və səmərəli əməkdaşlıq münasibətlərində hüquqi əlaqələr də xüsusi yer tutur.**

Belə ki, iki ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair mühüm sazişlər imzalanaraq uğurla icra olunur, nümayəndə heyətlərinin mübadiləsi aparılır, hüquqi yardım göstərilir. Bu əlaqələrin möhkəmləndirilməsi məqsədilə nazirliklər arasında qarşılıqlı fəaliyyətin əlavə sahələrini müəyyən edən əməkdaşlığa dair yeni sazişin imzalanması qərara alınıb. Həmin sənəd qısa müddətdə razılaşdırılaraq onun imzalanması məqsədilə Belarusun ədliyyə naziri Oleq Slijevski sentyabrın 21-də nümayəndə heyəti ilə ölkəmizə səfərə gəlib.

Səfər zamanı belaruslu nazir əvvəlcə Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad edərək məzarı önünə əklil qoyub. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılaraq, məzarı üzərinə tər çiçəklər düzülüb. Qonaq həmçinin, Şəhidlər Xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarlarını ziyarət edərək Əbədi məşəl abidəsi önünə əklil qoyub.

Sonra Ədliyyə Nazirliyində respublikamızın ədliyyə naziri Fikrət Məmmədovun və Belarusun ədliyyə naziri Oleq Slijevskinin görüşü keçirilib.

Görüşdə Azərbaycan-Belarus arasında səmimi dostluq və qarşılıqlı etimada əsaslanan ikitərəfli münasibətlərin uğurlu inkişafından danışılaraq strateji tərəfdaşlıq səviyyəsinə yüksələn bu əlaqələrin möhkəmlənməsində Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Belarus Prezidenti Aleksandr Lukaşenkonun müstəsna rolu vurğulanıb, dövlət başçılarımızın müntəzəm qarşılıqlı səfərlərinin bu əlaqələrin genişləndirilməsinə böyük təkan verdiyi qeyd olunub.





**Azərbaycan və Belarus ədliyyə nazirlərinin görüşü və iki ölkənin nazirlikləri arasında əməkdaşlığa dair Sazişin imzalanması**

Həmçinin, ədliyyə nazirlərinin görüşlərinin hüquqi sahədə qarşılıqlı fəaliyyətə mühüm töhfə verdiyi vurğulanıb, hər iki dövlətdə ədliyyə sistemində aparılan islahatlardan və yeniliklərdən bəhs olunaraq əməkdaşlığın dərinləşdirilməsi üçün geniş perspektivlərin olduğu bildirilib, səmərəli fikir və təcrübə mübadiləsi aparılıb.

Nazir O.Slijevski Azərbaycana səfərindən məmnunluğunu ifadə edərək ölkəmizin hərtərəfli tərəqqisinin şahidi olduğunu vurğulayıb, səmimi qonaqpərvərliyə və səfərin yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlığını bildirib. Qonaq ölkəmizin ədliyyə və məhkəmə sistemindəki nailiyyətlərinə və bu sahədə müsbət təcrübəmizə böyük maraq göstərərək təqdir edib, iki ölkənin ədliyyə orqanları arasında əlaqələrin genişləndirilməsinin əhəmiyyətini qeyd edib.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı həqiqətləri diqqətə çatdırılaraq bu münaqişə ilə bağlı məsələlərin beynəlxalq hüquq çərçivəsində həllində Belarus dövlətinin ədalətli mövqe və qətiyyətli addım



**Ali Məhkəmədə görüş və Məhkəmənin binası ilə tanışlıq**



**Heydər Əliyev Mərkəzi ilə tanışlıq**






**Elektron notariat sistemi, müxtəlif reyestrlər ilə tanışlıq**



**“ASAN xidmət”in fəaliyyəti ilə tanışlıq**



**Quba Soyqırımı Memorial Kompleksini ziyarət**

nümayiş etdirdiyi bildirilib, Belarus tərəfi münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olduğunu, ölkəmizin haqlı mövqeyini dəstəklədiyini söyləyib.

Sonra Azərbaycan və Belarus Ədliyyə nazirlikləri arasında elektron ədliyyə, ədliyyə işçilərinin tədrisi, notariat, məhkəmə qərarlarının icrası, mediasiya və digər sahələrdə birgə tədbirlərin həyata keçirilməsini nəzərdə tutan əməkdaşlıq haqqında Saziş imzalanıb. Nazirlər bu mühüm sənədin ikitərəfli münasibətlərin inkişafında müstəsna rolunu qeyd edərək, müxtəlif istiqamətlər üzrə qarşılıqlı fəaliyyətin genişlənəcəyinə əminliklərini ifadə ediblər.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olub, nümayəndə heyətinə müasir ədliyyə fəaliyyətini, həmçinin iki ölkə arasında hüquqi əlaqələri, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, o cümlədən Xocalı soyqırımı ilə bağlı materialları əks etdirən xüsusi jurnallar və əyani vəsaitlər təqdim edilib.



**Quba Rayon Məhkəməsinin müasir binası ilə tanışlıq**

Həmin gün Nazirliyin Qeydiyyat və notariat baş idarəsində olan Belarus nümayəndə heyəti orada elektron notariat sistemi, aparılan reyestrlər və informasiya resursları ilə tanış olub. Eyni zamanda, Azərbaycan brendi olan və ədliyyənin də geniş xidmətlər göstərdiyi "ASAN xidmət"ə xüsusi maraq göstərən qonaqlar onun vətəndaş məmnunluğunu təmin edən fəaliyyəti ilə tanış olaraq təqdir ediblər.

Səfər çərçivəsində Belarus nümayəndə heyəti Bakının müasir rəmzlərindən sayılan möhtəşəm Heydər Əliyev Mərkəzi ilə, həmçinin bölgələrdə yerli və regional ədliyyə qurumlarının fəaliyyəti, müasir məhkəmə infrastrukturu və informasiya texnologiyalarının tətbiqi, habelə Quba Soyqırımı Memorial Kompleksi ilə tanış olublar.

# Monteneqro ilə hüquqi sahədə əməkdaşlıq genişlənir

**Sentyabrın 26-da ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan Monteneqro Ali Məhkəməsinin sədri xanım Vesna Medenitsanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Nümayəndə heyətinin tərkibinə, həmçinin Ali Məhkəmənin hakimləri xanım Svetlana Vuyanoviç və Branimir Femiç daxil ediliblər.**

Azərbaycan və Monteneqro arasında dostluq və səmərəli əməkdaşlıq münasibətlərini qeyd edən nazir bu əlaqələrin inkişafında dövlət başçılarının qarşılıqlı səfərlərinin müstəsna rolunu vurğulayıb. Nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan və məhkəmə hakimiyyətinin müstəqilliyinin gücləndirilməsinə xidmət edən islahatlar, o cümlədən məhkəmə sisteminin və infrastrukturunun müasirləşdirilməsi, elektron məhkəmənin tətbiqi, hakimlərin Avropada örnək kimi dəyərləndirilən ən şəffaf seçimi barədə məlumat verib, məhkəmə və ədliyyə orqanları arasında əlaqələrin genişləndirilməsi üçün böyük perspektivlərin olduğunu bildirib.

Ölkəmizə səfərindən məmnunluğunu ifadə



edən qonaq Azərbaycan Prezidenti tərəfindən qəbul olunmasından şərəf duyduğunu, respublikamızın hərtərəfli tərəqqisinin şahidi olduğunu vurğulayıb, səmimi qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Xanım V.Medenitsa öz ölkəsinin məhkəmə sistemindən və aparılan islahatlardan bəhs edib, Azərbaycanın bu sahədəki nailiyyətlərinə, xüsusilə hakimlərin seçim prosesinə maraq göstərərək təqdir edib, qarşılıqlı fəaliyyətin dərinləşdirilməsi arzusunda olduğunu söyləyib, təcrübə mübadiləsinin vacibliyini qeyd edib.

Görüşdə əməkdaşlığın prioritetləri, o cümlədən məhkəmə hakimiyyətinin müstəqilliyi, Məhkəmə-Hüquq Şurasının fəaliyyəti, hakimlərin tədrisi və digər maraq doğuran məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olublar.

# Ədliyyə naziri Samux rayonunda vətəndaşları qəbul edib

**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, bu zaman ədalət prinsipinin tam təmin olunması ilə bağlı tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq sentyabrın 22-də ədliyyə naziri Fikrət Məmmədov Samux rayonu Heydər Əliyev Mərkəzində Samux və Yevlax rayonlarından və Naftalan şəhərindən, eləcə də digər rayon və şəhərlərdən olan vətəndaşların qəbulunu keçirib.

Qəbuldan əvvəl nazir və Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə qəbulda iştirak edən nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.



Səfər zamanı ədliyyə naziri, həmçinin yerli məhkəmə və ədliyyə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, hakim və ədliyyə işçiləri ilə müşavirə keçirib.

Nazir ölkə Prezidentinin cari ilin fevralında imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamının müstəsna əhəmiyyətini vurğulayaraq, vətəndaşların azadlıq hüququnun qorunmasına daha məsuliyyətlə yanaşılmasını, habelə şəffaflığın, məhkəmə qərarlarının ədalətliliyinin və icrasının təmin olunmasının vacibliyini, eləcə də qərəzli yanaşmanın, korrupsiyaya şərait yaradan halların yolverilməzliyini qeyd edib, aidiyyəti tövsiyə və tapşırıqlar verib.

Eyni zamanda, məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, rüşvətxorluğa, qanunsuz tələblərə və digər neqativ hallara son qoyulması, hər bir məmurun təvazökar olması ilə bağlı dövlət başçısının tələbləri diqqətə çatdırılaraq etik davranış qaydalarına dönmədən əməl olunması, vətəndaşlara daha həssas və qayğı ilə yanaşılması vurğulanıb.

# Azərbaycanın notariat sahəsində müsbət təcrübəsi maraqla qarşılanır





**Sentyabrın 28-29-da Bakıda "Hilton" mehmanxanasında Ədliyyə Nazirliyinin, Rusiya Federal Notariat Palatasının və Almaniyanın Qalle-Vittenberq Universitetinin birgə təşkilatçılığı ilə "Daşınmaz əmlakla bağlı əqdlərdə notariusların iştirakı: xarici təcrübə" mövzusunda beynəlxalq seminar keçirilib.**

Tədbirdə Rusiyanın Tatarıstan Respublikası və Samara Vilayətinin Notariat palatalarının prezidentləri, Azərbaycan, Rusiya və Belarusun notariusları, hüquqşünas alimlər iştirak ediblər.

Seminarda əşya hüququna dair Almaniya qanunvericiliyinin xüsusiyyətləri, ölkəmizdə daşınmaz əmlakla bağlı əqdlərin rəsmiləşdirilməsinin hüquqi aspektləri, elektron notariat informasiya sistemlərinin imkanları barədə ətraflı məlumat verilib, təqdimatlar keçirilib. Azərbaycanın bu sahədə müsbət təcrübəsinə böyük maraq göstərilib.



Səfər çərçivəsində Rusiya və Belarus nümayəndə heyətinin ədliyyə nazirinin müavini Toğrul Musayevlə görüşü keçirilib.

Görüşdə ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, bu əlaqələrin möhkəmlənməsində dövlət başçılarının xüsusi rolu vurğulanıb, hüquqi sahədə, o cümlədən notariat orqanları arasında qarşılıqlı fəaliyyətin genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirilib.

Nazir müavini T.Musayev ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son illər ədliyyə sisteminin, o cümlədən notariat orqanlarının inkişafı üzrə aparılan islahatlar, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, notarius korpusunun şəffaf prosedurlar əsasında formalaşdırılması, xüsusi notariat institutunun və elektron notariatın inkişafı barədə məlumat verib.

Seminarın yüksək səviyyədə təşkil olunmasına və səmimi qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən qonaqlar Azərbaycanda notariat sahəsindəki yenilikləri, o cümlədən müasir İKT-lərin tətbiqini təqdir edib, təcrübə mübadiləsinin faydasını qeyd ediblər. Nümayəndə heyətinin üzvləri öz ölkələrində notariat palatalarının fəaliyyəti barədə məlumat verərək əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını söyləyiblər.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyində olublar.

Səfər zamanı nümayəndə heyəti, həmçinin Azərbaycan brendi olan "ASAN xidmət" mərkəzinin vətəndaş məmnunluğunu təmin edən çoxşaxəli fəaliyyəti, eləcə də paytaxtın tarixi-mədəni abidələri, o cümlədən Bakının müasir rəmzlərindən sayılan Heydər Əliyev Mərkəzi ilə tanış olublar.

# Olqa Qrişina: Heç bir dövlətdə elektron notariatla işin təşkilinin Azərbaycanda olduğu dərəcə yüksək səviyyəsinin şahidi olmamışdıq

## Tatarıstan Respublikası notariat palatasının Prezidenti Olqa İlyiniçna Qrişinanın AzərTac-a müsahibəsi



*Notariat - mülki dövriyyənin bütün iştirakçılarının mülkiyyət hüquqlarını təmin edən mülkü hüquq institutu kimi yaranmışdır. Müasir dövrdə notariat işi böyük irəliləyişə nail olmuş və notariusun yanına gələn istənilən şəxs ixtisaslaşmış hüquqi yardım almaq imkanına malikdir.*

*Bakıda işgüzar səfərdə olan Tatarıstan Respublikasının əməkdar hüquqşünası, Tatarıstan Respublikasının Notariat Palatasının prezidenti Olqa İlyiniçna Qrişina, səfərin sıx qrafikinə baxmayaraq böyük həvəslə AzərTAc-ın müxbirinə müsahibə verməyə razılaşdı.*

"İlk dəfədir ki Bakıdayam. Azərbaycanın paytaxtı ilə bağlı təəsuratlarım möhtəşəmdir. Bakını bəyənməmək olmaz. Amma ən əsası - insanlardır. Nadir hallarda belə insanlara rast gəlmək olar: tərbiyələri, mehriban rəftarları, xoş niyyətləri... Biz Fəxri Xiyabanı ziyarət etdik və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini yad etdik. Bu protokol deyil, bu bizim borcumuzdur. Azərbaycanın qürur duymağa çox əsasları var", söhbətin əvvəlində Olqa Qrişina bildirdi.

**- Ötən həftə Azərbaycanın paytaxtında Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Rusiya Federal Notariat Palatasının və Almaniyanın Qalle-Vittenberq Universitetinin birgə təşkilatçılığı ilə "Daşınmaz əmlakla bağlı əqdlərdə notariusların iştirakı: xarici təcrübə" mövzusunda beynəlxalq seminar keçirilib.**

- Bu kimi tədbirlər müxtəlif ölkələrin notariatları sahəsində təcrübə mübadiləsi baxımından çox səmərəlidir. Seminarın təəssüratları bütün gözləntilərimizi aşdı. Daha dəqiq desəm, belə bir yüksək səviyyəli notariatla üzləşəcəyimizi gözləmirdik. Heç bir dövlətdə elektron notariatın Azərbaycanda olduğu dərəcə yüksək səviyyədə təşkilinin şahidi olmamışdıq. Əlbəttə ki, elektron texnologiyaların istifadəsində böyük irəliləyiş əldə etmiş Avropa ölkələri də var, amma bu gün Azərbaycan bir nömrədir. Bu bir iltifat deyil, bu gerçəkdir. Biz çox təsirləndik və hələ də həmkarlarımla böyük təəssurat içindəyik. Bu nailiyyətlərin Ədliyyə Nazirliyinin dəstəyi və himayəsi altında əldə edilməsi təqdirəlayiqdir.

Seminarda iqtisadiyyatı intensiv inkişaf edən, xüsusilə də tikinti-inşaat sahəsində ölkələr üçün aktual olan məsələlər müzakirə olundu. Məlumdur ki, son illərdə həm Rusiya, həm də Azərbaycanda tikinti sektoru sürətlə inkişaf etmiş, sahibkarlıq layihələri, habelə müxtəlif sosial proqramlar çərçivəsində coxsaylı mənzillər tikilmişdir.

Bu sahədə əqdlərin hüquqi təminatı notariatın əsas funksiyalarından biridir. Notariatın daşınmaz əmlakla bağlı əqdlərdə iştirakı müqavilə tərəflərinin hüquqlarının qorunmasına xidmət edir. Ona görə də, bu məsələlərdə dəqiqlik, müqavilə şərtlərinin ətraflı qeyd olunması və onların hüquq normalarına uyğunluğu çox vacibdir. Bu baxımdan da daşınmaz əmlakla bağlı əqdlərdə peşəkar hüquqşünasın - notariusun mülkiyyət hüquqlarının təminatçısı qismində iştirakı sahəsində vahid bir təcrübənin formalaşması çox vacibdir. Seminarda həmin məsələlərinin nəzəri və praktiki problemləri müzakirə olundu.

Bundan əlavə bizə müxtəlif növ xidmətlərin göstərildiyi "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti ilə tanış olmaq imkanı yaradıldı. Mərkəzlərdəki insanların sayı bu qurumların əhali arasında nə qədər böyük populyarlıq qazandığını göstərir.

**- Bu gün Rusiyada, Tatarıstan da daxil olmaqla, notariat palataları mövcuddur. Bu palataların təşkili barədə nə deyə bilərsiniz?**

- Notariat palatasının zəruriliyi faktdır. 1993-cü ildə "Rusiya Federasiyasının notariat haqqında qanunvericiliyin əsasları" qəbul edildikdən sonra dövlət notariusların xüsusi praktikaya keçməsinə və əvvəllər mövcud olmayan, prinsipcə yeni olan qeyri-kommersiya təşkilatı - "Federal Notariat Palatası (FNP) yaradılmasına imkan yarandı. Federal Notariat Palatası işini 84 regional notariat palataları ilə təşkil edir, palatalar isə yerlərdə notariusların işini əlaqələndirir. Şübhəsiz ki, palata notariatın işinin təşkilində dövlətə, Ədliyyə Nazirliyinə böyük yardımçıdır. Notariat bu gün - ölkənin ədliyyə sisteminin çox əhəmiyyətli tərkib hissəsidir, dövlətin hüquq sisteminin zəruri bir bölməsidir. O, dövlətin iqtisadi və sosial strukturlarına dəstək verən və hüquqi münaqişələrin qarşısını almaq məqsədi daşıyan institutdur. Hesab edirəm ki, Azərbaycan notariatı üçün Palatanın işinin təşkili sahəsində Rusiyanın təcrübəsini öyrənmək faydalı ola bilər.

**- Notariat sahəsində İKT-nin rolunu ("elektron notariat"ı) necə qiymətləndirirsiniz?**

- Müasir dünyada informasiyanın emalı, ötürülməsi və yığılması vasitələrinin rolu sonsuz dərəcədə artmışdır. Hazırda kompüter vasitələri və informasiya texnologiyaları ölkənin elmi və texniki potensialını, milli iqtisadiyyatının inkişaf səviyyəsini, insanların həyat tərzini müəyyənləşdirir.

Bu sahədə bizim Azərbaycandan öyrənəcək bir çox şey var. Seminarda, bizə dövlət orqanlarının müxtəlif reyestrlərinə və informasiya sistemlərinə inteqrasiya etmiş "Elektron notariat" informasiya sisteminin fəaliyyəti haqqında məlumat verildi. Bu sistemin vasitəsi ilə notariuslar müxtəlif məlumat bazasından onlayn rejimdə informasiya əldə etmək, notariat əməliyyatların həyata keçirilməsi üçün məlumatları dərhal yoxlamaq, əqdlərin bağlanması zamanı vergiləri hesablamaq, statistik məlumatları sistemləşdirmək, arxiv sənədlərini öyrənmək və digər imkanlara malikdir... hamısını sadalamaq olmur.

Burada bizə məlumat verildi ki, dövlətdə informasiya texnologiyaları və elektron xidmətlərin inkişafı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarının icrası ilə bağlı həyata keçirimişdir.

Notariat sahəsində İKT inkişafı və istifadəsi səviyyəsini nəzərə alaraq, biz notariat fəaliyyətinin həyata keçirilməsində müasir metodların tətbiqi sahəsində bizə yardım göstərməsi məqsədilə sizin mütəxəssislərinizin dəvət olunması barədə razılıq əldə etdik.

Mən Azərbaycan notariatının bundan sonra da çiçəklənməsini arzu edirəm və ölkələrimizin notariat fəaliyyəti sahəsində təcrübə mübadiləsi sahəsində sıx əməkdaşlığına ümid edirəm.

*Müsahibə üçün təşəkkür edirik.*

# AŞPA-nın həmməruzəçiləri Ədliyyə Nazirliyində olublar




**Ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyası (AŞPA) Monitorinq Komitəsinin həmməruzəçiləri Sezar Florin Preda və Stefan Şennak ədliyyə nazirinin müavini Azər Cəfərov ilə görüşüblər.**

Görüşdə Azərbaycan və Avropa Şurası arasında səmərəli əməkdaşlıqdan məmnunluq ifadə olunub, dövlət başçısının cari il fevralın 10-da imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamının icrası üzrə görülən işlər barədə faydalı müzakirələr aparılıb.

Həmməruzəçilər cinayət qanunvericiliyinin liberallaşdırılması, bir sıra cinayətlərin dekriminallaşdırılması məqsədilə yeni qanunların qəbul olunması və bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi işinin davam etdirilməsi, azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan qətimkan tədbirlərinin və alternativ cəzaların tətbiqinin genişləndirilməsi, Probasiya xidmətinin fəaliyyətinin təşkili üzrə tədbirlər barədə məlumatlandırılıb. Qonaqlar, həmçinin penitensiar müəssisələrə baş çəkmək üçün yaradılan imkana görə minnətdarlıqlarını bildiriblər.

Söhbət zamanı, həmçinin məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmləndirilməsindən, Məhkəmə-Hüquq Şurasının özünüidarə səlahiyyətlərinin genişləndirilməsindən, məhkəmə fəaliyyətində antikorrupsiya tədbirlərindən bəhs olunub, qonaqları maraqlandıran suallara aydınlıq gətirilib.

# Belarusla penitensiar sahədə səmərəli əməkdaşlıq edilir

**Sentyabrın 21-24-də Belarus Respublikasının Daxili İşlər Nazirliyi Cəzaların İcrası Departamentinin rəisi Sergey Doroşkonun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdə olub.**

Səfər zamanı qonaqlar Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad edərək məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılaraq, məzarı üzərinə tər çiçəklər düzülüb. Nümayəndə heyəti həmçinin, Şəhidlər Xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarlarını ziyarət edərək Əbədi məşəl abidəsi önünə əklil qoyub.

Ədliyyə Nazirliyinin Penitensiar xidmətində nazir müavini, xidmətin rəisi Ceyhun Həsənovun və Belarus Daxili İşlər Nazirliyi Cəzaların İcrası Departamentinin rəisi Sergey Doroşkonun görüşü olub.

Azərbaycan və Belarus arasında dostluq və səmərəli əməkdaşlıq münasibətlərini qeyd edən nazir müavini penitensiar sahədə əlaqələrin inkişafı üçün yaxşı imkanların olduğunu vurğulayıb, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son illər ədliyyə sisteminin inkişafı çərçivəsində penitensiar xidmətin islahatı, məhkumların hüquqlarının qorunması, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, infrastrukturun müasirləşdirilməsi, tibbi təminatın keyfiyyətinin yüksəldilməsi, vərəmlə mübarizə sahəsində görülən işlər barədə



məlumat verib.

Dövlət başçısının cari ilin fevralında imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamı ilə bu islahatların yeni mərhələyə keçdiyini söyləyən C.Həsənov bu mühüm sənədin icrası çərçivəsində cəzaçəkmə müəssisələrində istehsalatın təşkili, məhkumların fərdi əməyə və təsərrüfat işlərinə cəlb edilməsi sahəsində Belarusun təcrübəsi ilə tanış olmaq məqsədilə xidmət əməkdaşlarının bu yaxınlarda Belarusa səfərini və üç müxtəlif rejimli cəzaçəkmə müəssisəsinin fəaliyyəti ilə tanışlığını xatırladıb.

Ölkəmizə səfərindən məmnunluğunu ifadə edən qonaq Belarusun cəza-icra siyasətində əldə etdiyi uğurlar barədə məlumat verib, Azərbaycanın penitensiar müəssisələrində vərəmlə mübarizədə nailiyyətlərini yüksək qiymətləndirərək bu sahədə müsbət təcrübəmizin Belarusda tətbiqini və nəticədə vərəmli məhkumlar arasında ölümün 35 dəfə azaldığını diqqətə çatdırıb. S.Doroşko əməkdaşlığın perspektivləri barədə məlumat verərək, təcrübə mübadiləsi baxımından hazırkı səfərin uğurlu olacağına əminliyini bildirib.

Sonra Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar xidmətlə Belarus Respublikasının Daxili İşlər Nazirliyi Cəzaların İcrası Departamenti arasında hər iki ölkədə penitensiar sistemin islahatı, mühafizə və təhlükəsizlik sisteminin müasirləşdirilməsi, məhkumların tibbi və psixoloji təminatı, təhsili, şəxsi heyətin peşəkarlığının artırılması və digər istiqamətlər üzrə əməkdaşlığa dair sənəd imzalanıb.

Qonaqlar Penitensiar xidmətin tarix muzeyində olublar.

Belarus nümayəndə heyəti ölkəmizdə penitensiar sistemdə aparılan islahatlara maraq göstərərək müasir tipli Bakı istintaq təcridxanasına baş çəkib, müəssisənin fəaliyyəti, məhkumların saxlanma şəraiti ilə tanış olublar.

Səfər çərçivəsində qonaqların Belarusun Azərbaycandakı səfiri Gennadi Axramoviç ilə görüşü olub. Nümayəndə heyəti, həmçinin paytaxtın mədəni-tarixi abidələri, o cümlədən Heydər Əliyev Mərkəzi ilə tanış olub, respublikamızın bölgələrinə səfər edərək Qubada Soyqırımı Memorial Kompleksini ziyarət edib, Quba Tarix muzeyi və Mədəniyyət Sarayına baş çəkib, Azərbaycanda multikulturalizmin bariz nümunələrindən olan yəhudilərin kompakt yaşadıqları Qırmızı Qəsəbəni gəzib, yerli sakinlərlə söhbət ediblər.

## Ədliyyə Akademiyasının məlumatları

**Hakimlərin davamlı tədrisi çərçivəsində cari ilin sentyabrında Ədliyyə Akademiyasında apellyasiya və birinci instansiya məhkəmələrinin hakimləri üçün mülki və cinayət işləri üzrə məhkəmə baxışının xüsusiyyətləri mövzusunda ixtisasartırma kursları keçirilib.**

Kurslarda Ali, Bakı və Şirvan apellyasiya məhkəmələrinin hakimlərinin, Ədliyyə Nazirliyinin, Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə baş idarəsinin, Maliyyə Bazarlarına Nəzarət Palatası Maliyyə Monitorinq Xidmətinin aidiyyəti məsul şəxslərinin mühazirələri dinlənilib.

Hakimlərə alqı-satqı və bağışlama müqavilələri, habelə kənd təsərrüfatı təyinatlı dövlət və bə-

lədiyyə torpaqlarının mülkiyyətə verilməsi, həmin torpaq sahələrində tikinti işlərinin aparılması ilə bağlı yaranan mübahisələrə dair işlərə baxılması xüsusiyyətləri, məhkəmə qətnamələrinin icraya yönəldilməsi və icra zamanı məhkəmə ilə qarşılıqlı münasibətlər kimi məsələlər tədris olunub.

Həmçinin, ayrı-ayrı cinayət işləri üzrə məhkəmə təcrübəsindən irəli gələn problemlər, qətimkan tədbirlərinin seçilməsi, korrupsiyaya qarşı mübarizədə hüquq mühafizə orqanlarının qarşılıqlı əlaqəsi, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi əməllərinin hüquqi tövsifi və sübuta yetirilməsi kimi məsələlər hakimlərin diqqətinə çatdırılıb.





**Cinayət Məcəlləsinə "Hüquqi şəxslər barəsində tətbiq olunan cinayət-hüquqi tədbirlər" adlı yeni fəsil daxil edilib. Bu fəsil hüquqi şəxslərə cinayət-hüquqi tədbirlərin tətbiq olunmasının əsasları və şərtləri, həmin tədbirlərin növlərinə həsr olunub. Bununla əlaqədar hakimliyə namizədlərin ilkin uzunmüddətli tədris kursunun proqramına "Hüquqi şəxslərin cinayət məsuliyyəti" mövzusu daxil edilib.**

Sentyabrın 28-29-da Avropa Şurasının dəstəyi ilə hakimliyə namizədlər üçün "Hüquqi şəxslərin korporativ cinayət məsuliyyəti" mövzusunda seminar keçirilib. Tədbirin keçirilməsində əsas məqsəd namizədləri beynəlxalq təcrübəyə əsaslanaraq, korporativ cinayət məsuliyyəti hallarına dair əsas anlayışlarla tanış etməkdir.

Seminar "Azərbaycanda korrupsiya ilə mübarizə və onun qarşısının alınması sahəsində bacarıqların artırılması" layihəsi çərçivəsində təşkil edilib. Layihə 2015-ci ildən Avropa Şurası və Avropa İttifaqının Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq Proqramı çərçivəsində icra olunur. Layihənin əsas məqsədi korrupsiya ilə mübarizə və onun qarşısının alınmasına yönəlmiş institusional islahatların icrası vasitəsilə demokratiyanın və hüququn aliliyinə töhfə verməkdir. Bu məqsədlə korrupsiya ilə mübarizə və onun qarşısının alınması üçün institusional bacarıqların artırılması istiqamətində müxtəlif tədbirlər həyata keçirilir.

Tədbirdə korporativ cəzalar üçün sanksiyalar və məhkəmə hökmünün verilməsi praktikası, korporativ cinayət məsuliyyəti nəzəriyyəsi, bu kateqoriya işlərin araşdırılması, beynəlxalq səviyyədə korporativ məsuliyyət kimi mövzular müzakirə edilib.

**Sentyabrın 21-22-də Ədliyyə Akademiyasında Naxçıvan Muxtar Respublikası ərazisində fəaliyyət göstərən bələdiyyə üzvü və qulluqçularının hüquqi maarifləndirilməsi məqsədilə tədris kursu keçirilib.**

20-dək bələdiyyə nümayəndələrinin iştirak etdiyi kursda "Bələdiyyə qulluqçularının istifadəsinə və mühafizəsinə nəzarətin xüsusiyyətləri", Bələdiyyələrin fəaliyyətində şəffaflığın artırılması və korrupsiya hüquqpozmalarının qarşısının alınması", "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət", "Yerli (bələdiyyə) vergi və ödənişlərin yığılmasında bələdiyyələrin hüquq və vəzifələri", "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanunundan irələ gələn vəzifələr, "Bələdiyyə aktlarının qəbulu və icrası" mövzularında mühazirələr oxunub.

**Ədliyyə Akademiyası tərəfindən Avropa Şurasının Azərbaycan üçün Fəaliyyət Planı əsasında həyata keçirilən "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi" adlı layihənin icrası çərçivəsində paytaxtda və regionlarda silsilə təlimlər təşkil olunur.**

Sentyabrın 28-29-da Sumqayıt şəhərində vəkillər üçün "Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsi (Şəxsi və ailə həyatına hörmət hüququ) mövzusunda iki günlük təlim keçirilib.

Sumqayıt şəhəri və ətraf rayonlardan 35 vəkilin qatıldığı təlimdə müvafiq mövzu üzrə adıçəkilən layihə çərçivəsində keçirilmiş təlimçilər üçün təlim proqramının iştirakçıları tərəfindən mühazirələr oxunub, hüquqşünasları maraqlandıran suallar ətrafında faydalı fikir mübadiləsi aparılıb.



# Bələdiyyə nümayəndələri üçün seminarlar





**İmişli regional ədliyyə idarəsi tərəfindən sentyabrın 13-də Saatlı, 20-də isə Biləsuvar şəhərlərində bələdiyyə nümayəndələri üçün seminarlar keçirilib.**

Tədbirlərdə çıxış edən regional ədliyyə idarəsinin rəisi Hakim Məmmədov Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin artırılması, bələdiyyə üzvləri və qulluqçularının hüquqi maarifləndirilməsi, onlara metodiki kömək göstərilməsi və fəaliyyətlərinə inzibati nəzarət sahəsində görülən işlər barədə məlumat verib, qarşıda duran vəzifələrdən danışıb.

Həmçinin, etik davranış qaydaları, bələdiyyə aktlarının qəbulu və icrası, kargüzarlığın təşkili, inzibati nəzarət, nağdsız hesablaşmalar, bələdiyyə qulluğuna qəbul, bələdiyyə torpaqlarının idarə olunmasının əsasları, bələdiyyə torpaqlarının istifadəsinə və mühafizəsinə nəzarətin xüsusiyyətləri və digər mövzular üzrə mühazirələr dinlənilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
# FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 454-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 4, maddə 323, N 12, maddə 1034; 2007, N 11, maddə 1105, N 12, maddə 1246; 2009, N 7, maddə 533, N 8, maddə 627, N 10, maddə 773, N 12, maddələr 983, 988; 2010, N 2, maddə 83, N 4, maddə 292, N 11, maddə 966; 2011, N 1, maddə 18, N 2, maddə 85, N 4, maddə 281, N 6, maddə 497, N 10, maddə 894, N 11, maddə 993; 2012, N 10, maddə 950; 2014, N 6, maddə 627, N 7, maddə 820, N 9, maddə 1029; 2016, N 1, maddə 77; 2017, N 2, maddə 184) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 9.23-1-ci bənd əlavə edilsin:

"9.23-1. vergi ödəyicisinin siyahıya alınmış əmlakının elektron hərracda və ya satışı elektron şəkildə həyata keçirən ticarət şəbəkələrində satışı ilə bağlı zəruri məlumatlandırma işlərinin aparılmasını, satışa çıxarılan əmlakın aktual elektron bazasının yaradılmasını təmin etmək, habelə vergi ödəyicisinin siyahıya alınmış əmlakının satışından əldə olunan vəsait barədə, eləcə də siyahıya alınmış əmlakın hərracda (o cümlədən elektron hərracda) və ya ticarət şəbəkələrində (o cümlədən satışı elektron şəkildə həyata keçirən ticarət şəbəkələrində) satılması üçün icra məmurlarının sifarişləri barədə rüblük məlumatı hər rüb başa çatdıqdan sonra, növbəti ayın 20-dən gec olmayaraq, Azərbaycan Respublikasının Vergilər Nazirliyinə onun müəyyən etdiyi formada təqdim etmək;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 5 oktyabr 2017-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
# FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının

müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 647-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, N 2, maddə 87; 2015, N 8, maddə 910; 2016, N 8, maddə 1384; 2017, N 3, maddə 377) ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 1.5-1-ci bənd əlavə edilsin:

"1.5-1. Bu Əsasnamənin müddəaları cinayət təqibinin həyata keçirilməsi və ya məhkəmə icraatı çərçivəsində aparılan yoxlamalara şamil edilmir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 4 oktyabr 2017-ci il*

## "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 619-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

1. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 4, maddə 228; 2005, N 8, maddə 708, N 9, maddə 801, N 12, maddə 1103; 2006, N 12, maddə 1034; 2008, N 2, maddə 54; 2012, N 1, maddə 6; 2013, N 12, maddə 1529; 2014, N 2, maddə 103; 2016, N 3, maddə 465, N 9, maddə 1464, N 10, maddə 1637; 2017, N 5, maddə 846) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 16.2.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 9.2-1.1-ci və 9.2-2-ci (birinci halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirirlər;

2.3. həmin Qanunun 12.3-cü, 12.11-ci və 15.9.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.4. həmin Qanunun 2.0.3-cü, 4.6-cı və 5.1-ci maddələrində, 5.6-cı maddəsinin ikinci cümləsində (birinci və ikinci halda), 8.2-ci maddəsinin birinci cümləsində, 8.3-cü maddəsinin birinci cümləsində, 8.4-cü maddəsində, 8.5-ci maddəsinin ikinci cümləsində, 9.2-ci maddəsinin birinci və üçüncü cümlələrində, 11.3.1-ci və 11.3.4-cü maddələrində, 11.4-1-ci maddəsinin birinci və ikinci cümlələrində, 12.1-ci, 13.1-ci və 15.2-ci maddələrində, 15.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 16.1-ci maddəsində, 16.2-ci maddəsinin birinci abzasında, 16.4-cü maddəsinin ikinci cümləsində (birinci və ikinci halda), 16.5-ci maddəsində, 16.7-ci maddəsinin birinci cümləsində, 17-ci maddəsində (birinci halda), 18.1-ci maddəsinin ikinci cümləsində, 20.3-cü maddəsinin birinci cümləsində və 20.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini aşağıdakı orqanlar həyata keçirirlər:

2.4.1. qeyri-kommersiya hüquqi şəxslərinə və xarici qeyri-kommersiya hüquqi şəxslərinin filial və

nümayəndəliklərinə münasibətdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin müəyyən etdiyi bölgü üzrə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və onun rayon (şəhər) qeydiyyat şöbələri, Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən siyasi partiyalar və xarici ölkələrin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri istisna olmaqla, digər qeyri-kommersiya qurumlarına münasibətdə Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi;

2.4.2. kommersiya hüquqi şəxslərinə, xarici kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə, publik hüquqi şəxslərə münasibətdə Azərbaycan Respublikası Vergilər Nazirliyinin müəyyən etdiyi bölgü üzrə bu orqana bilavasitə tabe olan vergi orqanları, habelə Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi;

2.4.3. dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsi;

2.5. həmin Qanunun 2.0.11-ci, 2.0.13-cü maddələrində, 5-1.1-ci maddəsinin üçüncü cümləsində, 5-1.4-cü maddəsinin ikinci cümləsində və 5-1.6-cı maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Vergilər Nazirliyi həyata keçirir;

2.6. həmin Qanunun 5.3.4-cü, 12.12-ci və 15.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini qeyri-kommersiya qurumlarına münasibətdə Azərbaycan Respublikasının Nazirlər Kabineti, kommersiya qurumlarına və publik hüquqi şəxslərə münasibətdə isə Azərbaycan Respublikasının Vergilər Nazirliyi həyata keçirirlər;

2.7. həmin Qanunun 5.4.9-cu maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi həyata keçirir;

2.8. həmin Qanunun 6.1.3-cü maddəsinin birinci cümləsində və 7.1.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həyata keçirir;

2.9. həmin Qanunun 7.2-ci maddəsində, 8-1-si maddəsində (birinci halda), 9.2-1-ci maddəsinin birinci abzasında və 13.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Vergilər Nazirliyinin müəyyən etdiyi bölgü üzrə bu orqana bilavasitə tabe olan vergi orqanları, habelə Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi həyata keçirirlər;

2.10. həmin Qanunun 8-1-si maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi icra hakimiyyəti orqanı həyata keçirir;

2.11. həmin Qanunun 9.2-2-ci maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti həyata keçirirlər;

2.12. həmin Qanunun 11.4-1-ci maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;

2.13. həmin Qanunun 12.3-1-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

2.14. həmin Qanunun 16.2.4-cü maddəsində "qurum" dedikdə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası nəzərdə tutulur;

2.15. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi dövlət qeydiyyatına aldığı qeyri-kommersiya qurumları barədə məlumatı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edir.";

1.2. 4-cü və 5-ci hissələr ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 22 sentyabr 2017-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

**”Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikası Qanununun 27.3-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin I hissəsinə, 29-cu maddəsinin I, II və III hissələrinə, 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılmasına dair**

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova (məruzəçi-hakim), Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə, məhkəmə katibi Fəraid Əliyevin, sorğuverən orqanın nümayəndəsi Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Aparatının Elmi-Analitik sektorunun müdiri Mahir Məmmədovun, cavabverən orqanın nümayəndəsi Azərbaycan Respublikası Milli Məclisi Aparatının İqtisadi qanunvericilik şöbəsinin Mülki qanunvericilik sektorunun müdiri Nadir Sultanovun, ekspert Bakı Dövlət Universitetinin Mülki proses və kommersiya hüququ kafedrasının dosent əvəzi, hüquq üzrə fəlsəfə doktoru Əsmər Əliyevanın, mütəxəssislər Azərbaycan Respublikası Mərkəzi Bankının Hüquq departamentinin böyük hüquq məsləhətçisi Elnur Musayevin, Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının Hüquq və icraat departamentinin hüquqşünası Rüfət Məmmədxanlının və Azərbaycan Əmanətlərin Sığortalanması Fondunun icraçı direktor müavini Ramil Tahirovun iştirakı ilə, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VII hissəsinə müvafiq olaraq konstitusiya məhkəmə icraatı üzrə açıq məhkəmə iclasında "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 27.3-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin I hissəsinə, 29-cu maddəsinin I, II və III hissələrinə, 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılmasına dair Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) sorğusu əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim S.Həsənovanın məruzəsini, sorğuverən və cavabverən orqanın nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bun-

dan sonra - Konstitusiya Məhkəməsi) sorğu verərək "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - "Əmanətlərin Sığortalanması haqqında" Qanun) 27.3-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 13-cü maddəsinin I hissəsinə, 29-cu maddəsinin I, II və III hissələrinə, 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılmasını xahiş etmişdir.

Sorğuda göstərilir ki, "Əmanətlərin sığortalanması haqqında" Qanunun 26.1-ci maddəsinə əsasən, Əmanətlərin Sığortalanması Fondu (bundan sonra - Fond) tərəfindən hər bir iştirakçı bankda sığortalanmış əmanət üzrə əmanətin 100 faizi həcmində, lakin 30 (otuz) min manatdan çox olmamaq şərtilə kompensasiya ödənilir.

Həmin Qanunun 27.1-ci maddəsinə görə, milli valyutada olan əmanətlər üzrə kompensasiya manatla, xarici valyutada olan əmanətlər üzrə isə əmanətlərin valyutasında ödənilir. Qanunun 27.3-cü maddəsinə əsasən isə bir əmanətçinin bir bankda, o cümlədən bankın yerli filiallarında və şöbələrində bir neçə əmanəti olduqda, yaxud həm milli, həm də xarici valyutada əmanətləri olduqda, onlar toplanır və bir əmanət kimi manatla kompensasiya olunur.

Sorğuverən qeyd edir ki, fiziki şəxslərin bir bankda, o cümlədən bankın yerli filial və şöbələrində Qanunun tələblərinə uyğun məbləğdə və faiz dərəcəsində həm milli, həm də bir və ya bir neçə xarici valyutada qoyduğu sığortalanmış əmanətlər bankın gələcəkdə ödəmə qabiliyyətini itirdiyi zaman Fond tərəfindən toplanır və bir əmanət kimi manatla kompensasiya olunaraq əmanətçilərə qaytarılır.

Sorğuverənin qənaətinə görə, kredit və əmanət müqaviləsi üzrə verilmiş pul kredit verənin mülkiyyətində olan istənilən valyutada ola bilər və müqavilənin predmetini təşkil etməklə qaytarılmalı olan mülkiyyət kimi çıxış etməlidir.

Sorğu onunla əsaslandırılmışdır ki, "Əmanətlərin sığortalanması haqqında" Qanunun 27.3-cü maddəsi əmanətçilərin Konstitusiyanın 13 və 29-cu maddələrində nəzərdə tutulmuş mülkiyyət hüququnu pozur, normalar arasında daxili uzlaşmanı istisna etməklə Konstitusiyanın 149-cu maddəsinin normativ hüquqi aktların haqq-ədalətə əsaslanmalı olması tələbinə cavab vermir.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə bağlı aşağıdakıların qeyd edilməsini zəruri hesab edir.

Konstitusiyanın 13-cü maddəsinə əsasən, Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Konstitusiyanın 29-cu maddəsinə görə, hər kəsin mülkiyyət hüququ vardır. Mülkiyyətin heç bir növünə üstünlük verilmir və mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur. Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər.

Qeyd olunmalıdır ki, dövlət vətəndaşların iqtisadi vəziyyətini daha da yaxşılaşdırmaq, fiziki şəxslərdən əmanətə qəbul olunmuş pul vəsaitinin itirilməsi riskinin qarşısını almaq, maliyyə və bank sisteminin sabitliyini və inkişafını təmin etmək məqsədilə bir sıra tədbirlər həyata keçirmişdir.

Yuxarıda göstərilənlərə nail olmaq, eləcə də əmanətçilərin mülkiyyət hüquqlarının təmin edilməsi məqsədilə sığorta hadisəsi baş verdikdə əmanətlər üzrə kompensasiyanın ödənilməsini nəzərdə tutan "Əmanətlərin sığortalanması haqqında" 2006-cı il 29 dekabr tarixli Qanun qəbul edilmişdir. Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 9 fevral tarixli Fərmanına əsasən Əmanətlərin Sığortalanması Fondu yaradılmışdır.

"Əmanətlərin sığortalanması haqqında" Qanunun preambulasında qeyd edilmişdir ki, bu

Qanun Azərbaycan Respublikasında fəaliyyət göstərən banklarda fiziki şəxslərin əmanətlərinin kollektiv icbari sığortalanması sisteminin yaradılması və fəaliyyəti, o cümlədən əmanətlər üzrə kompensasiya ödənilməsi qaydalarını müəyyən edir.

Həmin Qanunun 1-ci maddəsinə görə, əmanətlərin sığortalanması sisteminin yaradılmasının məqsədi banklar və xarici bankların yerli filialları ödəmə qabiliyyətini itirdikdə, fiziki şəxslərdən əmanətə qəbul olunmuş pul vəsaitinin itirilməsi riskinin qarşısını almaq, maliyyə və bank sisteminin sabitliyini və inkişafını təmin etməkdir.

Konstitusiya Məhkəməsinin Plenumu sorğuda qaldırılan məsələyə aydınlıq gətirilməsi, eləcə də "Əmanətlərin sığortalanması haqqında" Qanunun mahiyyətinin dəyərləndirilməsi üçün bu Qanunda istifadə olunan bəzi anlayışların mənalarına diqqət yetirilməsini vacib hesab edir:

o əmanət - hesablanmış faizlər də daxil olmaqla, bankın milli və xarici valyutada qəbul etdiyi və müvafiq qanunvericiliyə və ya müqaviləyə əsasən geri ödəməli olduğu pul vəsaitləridir (2.1.1-ci maddə);

o qorunan əmanət - sığorta hadisəsi baş verdikdə Fond tərəfindən qorunan əmanətçiyə kompensasiya olunan əmanətidir (2.1.2-ci maddə);

o iştirakçı bank - bu qanunla müəyyən edilmiş qaydada Fonda sığorta haqları ödəmək öhdəlikləri daşıyan bank və ya xarici bankın yerli filialıdır (2.1.6-cı maddə);

o sığorta hadisəsi - iştirakçı bankın məcburi ləğv edilməsi və ya müflis elan olunması, yaxud qanunvericiliyə müvafiq olaraq əmanətlər üzrə öhdəliklərin yerinə yetirilməsinə moratorium tətbiq edilməsi barədə məhkəmə qərarının qüvvəyə minməsi və bankın əmanətçilər qarşısında öz öhdəliklərini qanun və ya müqavilə şərtlərinə uyğun yerinə yetirə bilməməsi faktının maliyyə bazarlarına nəzarət orqanı tərəfindən təsdiq edilməsidir (2.1.9-cu maddə);

o kompensasiya - sığorta hadisəsi baş verdikdə, qorunan əmanətçilərə ödənilən pul vəsaitidir (2.1.11-ci maddə).

Fondun hüquqi statusu adıçəkilən Qanunun 3-cü maddəsində müəyyən edilmişdir. Bu maddəyə görə, Fond hüquqi şəxsdir, qeyri-kommersiya təşkilatıdır və öz əmlakının mülkiyyətçisidir. Fondun əsas məqsədi mənfəət götürmək deyil və onun fəaliyyəti nəticəsində əldə etdiyi bütün mənfəət sığorta ehtiyatlarının artırılmasına yönəldilir. Fond öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasına, "Əmanətlərin sığortalanması haqqında" Qanuna, digər qanunvericilik aktlarına və Fondun Qaydalarına əsaslanır. Bu Qaydalar Fondun Himayəçilik Şurası tərəfindən qəbul edilir və bütün iştirakçı banklar üçün məcburi xarakter daşıyır. Fiziki şəxslərin əmanətlərinin cəlb edilməsi üçün bank lisenziyasına malik olan bütün banklar və xarici bankların yerli filialları Fondun məcburi iştirakçılarıdır. İştirakçı bankların Azərbaycan Respublikası ərazisindən kənarda yerləşən filiallarındakı əmanətlər Fond tərəfindən sığorta olunmur və onlar üzrə kompensasiya ödənilmir.

"Əmanətlərin sığortalanması haqqında" Qanunda nəzərdə tutulmuş sığorta hadisəsi baş verdikdə, əmanətçilər barədə məlumatlar qanunvericiliklə müəyyən edilmiş qaydada Fonda verilir. Sığorta hadisəsi baş vermiş bankın qorunan əmanətçilərinə kompensasiya ödənilməsi Fondun əsas funksiyası və vəzifəsidir. Fond iştirakçı bankın öhdəlikləri üzrə kompensasiya ödədikdə həmin məbləği reqres qaydasında bankdan tələb edir (Qanunun 4.1.8-ci maddəsi).

Qeyd olunduğu kimi, "Əmanətlərin sığortalanması haqqında" Qanunun 27-ci maddəsində sığorta hadisəsi baş verdikdə kompensasiyanın ödənilməsi qaydaları müəyyənləşdirilmişdir. Belə ki, həmin Qanunun 27.1-ci maddəsinə əsasən, milli

valyutada olan əmanətlər üzrə kompensasiya manatla, xarici valyutada olan əmanətlər üzrə isə əmanətlərin valyutasında ödənilir. Əmanətlər ABŞ dolları və ya Avroda olmadıqda, kompensasiya bu valyutaların biri ilə sığorta hadisəsinin baş verdiyi günə Mərkəzi Bankın müvafiq valyutalar üzrə müəyyən etdiyi rəsmi məzənnələr əsasında hesablanmış çarpaz məzənnə üzrə hesablanır və ödənilir.

Bu maddənin məzmununa görə, əgər bir əmanətçinin bir neçə bankda qoyulmuş xarici valyutada əmanətləri olarsa, sığorta hadisəsi baş verdikdə əmanətlər Qanunun 26.1-ci maddəsinin tələbinə uyğun olaraq ayrı-ayrılıqda həmin əmanətin valyutasında kompensasiya edilir.

Göründüyü kimi, qanunverici geniş mülahizə sərbəstliyindən istifadə edərək bu məsələyə liberal yanaşmış, sığorta hadisəsi baş verdiyi zaman iştirakçı banka qoyulmuş əmanətlər üzrə kompensasiyanın ödənilməsini həmin əmanətin valyutasında nəzərdə tutmuşdur.

"Əmanətlərin sığortalanması haqqında" Qanunun 27.3-cü maddəsinin tələbinə görə isə bir əmanətçinin bir bankda, o cümlədən bankın yerli filiallarında və şöbələrində bir neçə əmanəti olduqda, yaxud həm milli, həm də xarici valyutada əmanətləri olduqda onlar toplanır və bir əmanət kimi manatla kompensasiya olunur.

Bununla bağlı qeyd edilməlidir ki, Qanunun 11-ci maddəsinə görə, Fondun sığorta ehtiyatları aşağıdakı mənbələr hesabına formalaşır:

- iştirakçı bankların üzvlük haqları;
- iştirakçı bankların təqvim haqları;
- iştirakçı bankların əlavə haqları;
- iştirakçı banklar tərəfindən ödənilən dəbbə pulları;
- qrant, ianələr;
- kompensasiyanın ödənilməsi üçün çatışmayan məbləğdə alınmış borc vəsaitləri və s.

Beləliklə, Fondun sığorta ehtiyatları yuxarıda qeyd olunan mənbələr hesabına formalaşır, yəni əmanətçilər əmanətlərinin sığortalanmasına görə heç bir haqq ödəmirlər.

Fondun sığorta ehtiyatlarından biri olan iştirakçı bankların təqvim haqları həmin Qanunun 13.6-cı maddəsinə uyğun olaraq əmanətlərin valyutasında ödənilir. Təqvim haqları iştirakçı bankların Fondun reyestrinə daxil edildiyi gündən başlayaraq bank lisenziyasının ləğv edildiyi günədək ödənilir. Fondun digər gəlirləri olan iştirakçı bankların üzvlük haqları və Fondun likvid (nəğd pula tez çevrilən) aktivləri son hesabat dövründə qorunan əmanətlərin bir faizindən aşağı düşdükdə və ya kompensasiyaların ödənilməsi üçün vəsaitin kifayət etməməsi ehtimalı yarandıqda Mərkəzi Bankın aktivləri və ya dövlət hesabına borc vəsaitləri cəlb edilir ki, bu vəsaitlər də yalnız milli pulla ödənilir. Bu səbəbdən də Fondun vəsaitlərinin böyük hissəsi manatla formalaşır.

Qanunun 26.1-ci maddəsi də qorunan əmanətlərin limitini manatla müəyyən etdiyindən fərqli valyutalarda qoyulan əmanətlərin vahid valyutaya çevrilməsi daha məqbul hesab olunur. Belə qayda, həmçinin əmanətçilərə ödənilən kompensasiyaların daha qısa müddətdə ödənilməsinə şərait yaratmış olur. Bu baxımdan, qanunvericinin Qanunun 27.3-cü maddəsində nəzərdə tutulan qaydada ödəniləcək kompensasiyaların limitinin hesablanmasını asanlaşdırmaq mövqeyi başa düşüləndir.

Sorğu, həmçinin Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 439.1, 439.2 və 439.7-ci maddələrinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılması və həmin maddələrin bəzi müddəalarının şərh edilməsinə dair" 14 may 2015-ci il tarixli Qərarında əks olunmuş "kredit və əmanət müqaviləsi üzrə verilmiş pul kredit verənin (əmanətçinin) mülkiyyətində olan istənilən valyutada ola bilər və müqavilənin predmetini təşkil etməklə qaytarılmalı olan mülkiyyət kimi

çıxış edir" hüquqi mövqeyi ilə əsaslandırılmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu sorğuverənin bu qənaəti ilə bağlı qeyd edir ki, "Əmanətlərin sığortalanması haqqında" Qanun bankla əmanətçi arasında olan münasibətlərə şamil edilmir. Bu Qanun yalnız iştirakçı bankda sığorta hadisəsinin baş verməsi ilə əlaqədar əmanətçilərə kompensasiyanın ödənilməsi məsələlərini tənzimləyir. Həmin Qanunun normalarının təhlilindən görünür ki, banka qoyulmuş əmanətə görə kompensasiya yalnız sığorta hadisəsi, yəni bankın müflis elan olunması, məcburi ləğv edilməsi və s. baş verdikdə və öz öhdəliklərini yerinə yetirə bilməməsi faktı təsdiq edildikdə ödənilir. Belə halda qoyulmuş əmanətin əvəzinə kompensasiya bank tərəfindən deyil, Fond tərəfindən verilir. Əgər belə sığorta hadisəsi baş verməmişdirsə, qoyulan əmanət bankla bağlanan bank əmanəti müqaviləsində nəzərdə tutulmuş müddət bitdikdə bank tərəfindən hansı valyutada qoyulmuşdursa, həmin valyutada da mülkiyyət kimi geri qaytarılmalıdır.

Belə ki, bank və əmanətçilər arasında münasibətlər Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra - Mülki Məcəllə) 51-ci fəslinin normaları və "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Mülki Məcəllənin 944.1-ci maddəsinə görə, bank əmanəti (depozit) müqaviləsinə görə bir tərəf (bank) başqa tərəfdən (əmanətçidən) və ya başqa tərəf (əmanətçi) üçün daxil olmuş pul məbləğini (əmanəti) qəbul edərək müqavilədə nəzərdə tutulmuş şərtlərlə və qaydada əmanət məbləğini əmanətçiyə qaytarmağı və onun üçün faizlər ödəməyi öhdəsinə götürür. Həmçinin "Əmanətlərin sığortalanması haqqında" Qanunun 2.1.1-ci maddəsinin məzmununa görə, bankla əmanətçi arasında münasibətlər tərəflər arasında bağlanmış bank əmanəti müqaviləsinin şərtləri ilə tənzimlənir. Göründüyü kimi, hər iki norma əmanətçi ilə bank arasında münasibətlərin tənzimlənməsini bank əmanəti müqaviləsinin şərtləri ilə əlaqələndirmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, sığorta hadisəsi baş verdikdə Fond tərəfindən hər bir iştirakçı bankda sığortalanmış əmanət üzrə kompensasiyanın ödənilməsi heç də bank əmanətinin qaytarılması və ya Fondun bankın öhdəliyini öz üzərinə götürməsi anlamını verməməlidir. Fond tərəfindən kompensasiya əmanətçinin pul vəsaitini itirməsi riskinin qarşısını almaq məqsədi ilə yarana biləcək məhdudiyyətlərin əvəzi kimi ödənilir. Beləliklə, Fondun əsas məqsədi qoyulan əmanətlərin mülkiyyət kimi geri qaytarılması deyil, əmanətçilərin banklarda olan əmanətlərini sığortalamaqla onlara dəyə biləcək maddi və mənəvi ziyanı ən qısa müddətdə qanunvericiliklə müəyyən edilmiş qaydada kompensasiya etməklə ölkənin maliyyə və bank sisteminin inkişafına dəstək olmaqdır.

Bununla yanaşı qeyd olunmalıdır ki, kompensasiya almaq sığorta hadisəsi riskinə məruz qalmış əmanətçinin hüququdur. Əmanətçiyə kompensasiya almaq hüququ və ödənilməsi şərtləri izah olunur və o, kompensasiya almaqdan imtina etdikdə banka qarşı tələb irəli sürmək hüququnu saxlayır. Əmanətçinin banka qarşı irəli sürdüyü tələbə isə bank əmanəti müqaviləsinin şərtlərinə uyğun baxılır.

"Əmanətlərin sığortalanması haqqında" Qanunun 25.2-ci maddəsinə əsasən, qorunan əmanətçi Fonddan aldığı kompensasiya ilə əmanəti arasındakı fərq məbləğində qanunvericiliyə müvafiq qaydada banka qarşı tələb irəli sürə bilər.

Konstitusiya Məhkəməsinin Plenumu sorğuda qaldırılan məsələ ilə bağlı beynəlxalq təcrübəyə diqqət yetirilməsini məqsədə müvafiq hesab edir. Belə ki, bir sıra ölkələrdə (Rusiya, Ukrayna, Qazaxıstan, Türkiyə, Malayziya, Cənubi Koreya, ABŞ, Kanada, Avropa Birliyi ölkələrində və s.)

qorunan əmanətlər üzrə kompensasiyalar əmanətin valyutasından asılı olmayaraq, əsasən milli valyuta ilə ödənilir. Bəzi dövlətlərin (Böyük Britaniya, Belçika, Sinqapur, Fransa, Yaponiya və s.) qanunvericiliyinə görə isə xarici valyutada qoyulmuş əmanətlər bir qayda olaraq sığortalanmır və kompensasiya edilmir.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, əmanətçilər sığorta hadisəsi baş verəcəyi təqdirdə kompensasiyaların ödəniş şərtləri barədə əvvəlcədən məlumatlandırıldıqları üçün kompensasiyanın milli valyutada ödənilməsi onların konstitusiya hüquqlarının pozulması kimi qiymətləndirilməməlidir. Belə ki, bank əmanəti müqaviləsində sığorta hadisəsi baş verdikdə kompensasiyanın ödənilməsi qaydası və şərtləri barədə müddəalar əks olunmalıdır.

Eyni zamanda, kompensasiyaların ödənilməsində milli valyutaya üstünlük verilməsi Azərbaycan Respublikasının pul vahidi olan manatın sabitliyinə nail olunması, onun alıcılıq qabiliyyətinin möhkəmləndirilməsini təmin edən valyuta siyasəti ilə bağlıdır.

Sorğuverənin "Əmanətlərin sığortalanması haqqında" Qanunun 27.1-ci maddəsi ilə 27.3-cü maddəsi arasında daxili uzlaşmanın olmaması dəlili ilə bağlı qeyd olunmalıdır ki, həmin Qanunun 27.1-ci maddəsinə münasibətdə 27.3-cü maddəsi xüsusi hallarda kompensasiyaların ödənilməsini nəzərdə tutur. Qanunun 27.1-ci maddəsi ilə 27.3-cü maddəsinin tənzimləmə obyekti kompensasiyaların ödənilməsi olsa da, kompensasiyaların ödənildiyi hallar fərqlidir.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, iştirakçı bankda sığorta hadisəsi baş verdikdə kompensasiyanın ödənilməsi əmanətlərin mülkiyyət kimi geri qaytarılması deyil, əmanətçilərə dəyə biləcək maddi ziyanı kompensasiya etmək məqsədi daşıdığı üçün "Əmanətlərin sığortalanması haqqında" Qanunun 27.3-cü maddəsi Konstitusiyanın 13-cü maddəsinin I hissəsi, 29-cu maddəsinin I, II və III hissələri, 149-cu maddəsinin I və III hissələri ilə uyğunsuzluq təşkil etmir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VII hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 52, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. İştirakçı bankda sığorta hadisəsi baş verdikdə kompensasiyanın ödənilməsi əmanətlərin mülkiyyət kimi geri qaytarılması deyil, əmanətçilərə dəyə biləcək maddi ziyanı kompensasiya etmək məqsədi daşıdığı üçün "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 27.3-cü maddəsi Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin I hissəsi, 29-cu maddəsinin I, II və III hissələri, 149-cu maddəsinin I və III hissələri ilə uyğunsuzluq təşkil etmir.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.
3. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.
4. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:**
**Fərhad Abdullayev**

*Bakı şəhəri, 6 iyul 2017-ci il*